49 (1304) 21-27 dekabr 2023-cü il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

# 24 DEKABR - MİLLİ İNTİBAHIMIZIN BAŞ MEMARI – AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN DOĞUM GÜNÜDÜR

Azərbaycan xalqı son 20 ildə özünün müstəqillik və müasir dövlətçilik tarixinin ən qürurverici mərhələsinə qədəm qoyub. 2020-ci ilin Vətən müharibəsində torpaqlarımızın 30 illik işğalına son qoyuldu, ərazi bütövlüyümüz bərpa edildi. 44 gün davam edən savaşda xalqımız özünün beynəlxalq hüquqla təsbit edilmiş hüquqlarını təmin etdi.

2023-cü ilin sentyabr ayında isə Vətən müharibəsinin məntiqi davamı olaraq Azərbaycan dövləti tarixi torpaqlarımız olan Qarabağda suverenliyini təmin etdi, erməni separatizminə həmişəlik son qoydu. Ordumuzun həyata keçirdiyi bu antiterror tədbirlərinin uğurlu nəticəsi hər birimizə sonsuz qürur yaşatdı, fərəhləndirdi. Bununla torpaqlarımızda xarici qüvvələrin təsiri ilə reallaşdırılması planlaşdırılan 200 illik saxta erməni layihəsinə son qoyuldu. Qarabağda ikinci erməni dövləti yaratmaq xülyası status iddiaları kimi birdəfəlik tarixin zibilliyinə göndərildi.

Azərbaycan dövlətinin bu tarixi uğurlarının memarı isə Prezident İlham Əliyev cənablarıdır. Olduqca xoşdur ki, Prezident İlham Əliyevin respublikamıza müdrik rəhbərliyinin 20-ci ilinin tamamını bu cür möhtəşəm qələbələrlə qarşılayırıq…

2003-cü ilin 15 oktyabrında xalqımızın milli iradəsi ilə Azərbaycan Respublikasının Prezidenti seçilən cənab İlham Əliyev həyata keçirdiyi çoxşaxəli inkişaf prosesləri, ölkəmizə və xalqımıza qazandırdığı parlaq nailiyyətlərlə bu 20 ili Azərbaycan həyatında əsl intibah tarixinə çevirməyə müvəffəq olmuş, tarixin ən qüdrətli Azərbaycanını cari strateji dövrün böyük hədəflərinə yetirmiş, ölkəmizin gələcəyi üçün möhkəm təməllər formalaşdırmışdır.



*"Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".*

***Ümummilli Lider Heydər Əliyev***

**Heydər Əliyevin ən təcrübəli və layiqli siyasi davamçısı**

Dövlətlərin və xalqların tarixinin yazılmasından başlamış, dünya birliyində özünə layiqli yer tutmasının və tanınmasının zamanın süzgəcindən keçərək, özünü doğruldan aydın şərtləri var. Tarix həmin şərtləri dönə-dönə sübut edərək göstərir ki, dövlətlərin və xalqların inkişafı, yüksəlişi üçün onun malik olduğu maddi və mənəvi zənginliklər vacib olsa da, yetərli sayıla bilməz. Bu baxımdan onların taleyində lider amilinin bütün şərtlərin fövqündə dayanması ən mühüm siyasi reallıqdır.

Bu il anadan olmasının 100-cü ildönümünü böyük sevgi ilə qeyd etdiyimiz Ulu Öndər Heydər Əliyevin adı hər zaman məhz belə liderlərin cərgəsində çəkiləcək. Azərbaycanın yüksəlişini, beynəlxalq miqyasda qazandığı nüfuzu qiymətləndirərkən Ulu Öndər Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısındakı əvəzsiz xidmətləri hər birimizin gözü önündə canlanır. Ulu Öndər tərəfindən görülən böyük işlərin, onun həyata keçirdiyi xilaskarlıq və quruculuq missiyalarının məntiqi nəticəsidir ki, bu gün xalqımız demokratik və hüquqi dövlətdə yaşamaq imkanı əldə etmiş, xoşbəxt gələcəyi üçün bütün təminatları yaratmışdır. Azərbaycanın indiki sürətli yüksəlişinin təməlində məhz Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyası dayanır. Dahi şəxsiyyətin böyüklüyü həm də ondadır ki, Ulu Öndər yalnız Azərbaycanın davamlı inkişaf strategiyasının möhkəm təməlini qoymaqla kifayətlənməmiş, cənab İlham Əliyevin timsalında bu strateji kursu davam etdirməyə qadir istedadlı, praqmatik və rasional təfəkkürlü, xalqını, dövlətini sevən, yüksək idarəçilik keyfiyyətlərinə malik siyasi davamçı və lider də yetişdirmişdir.

*(davamı 2-ci səhifədə)*

## Azərbaycanla Türkiyə arasında əməkdaşlığın müxtəlif sahələrdə inkişaf perspektivləri müzakirə olundu



Dekabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının vitse-prezidenti Cevdet Yılmaz ilə görüşüb.

Türkiyənin vitse-prezidenti tarixi Qələbə və Azərbaycanın suverenliyinin tam bərpa olunması münasibətilə bir daha təbriklərini çatdırıb, işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işlərinin Türkiyədə böyük sevinclə qarşılandığını vurğulayıb. Bu xüsusda ermənilər tərəfindən basdırılmış minaların hələ də böyük təhlükə törətdiyi və yenidənqurma işlərinə mane olduğu bildirilib.

Vitse-prezident Türkiyədə baş vermiş zəlzələ zamanı Azərbaycanın göstərdiyi qardaşlıq dəstəyinə görə təşəkkürünü bildirib, Kahramanmaraşda həyata keçirilən bərpa və tikinti işlərini xüsusilə qeyd edib. Cevdet Yılmaz dünyanın yaşıl və rəqəmsal transformasiya dövründə olduğunu nəzərə alaraq, Azərbaycanla Türkiyənin bu sahədə də birgə çalışmasının və əməkdaşlığının vacibliyini vurğulayıb.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında ticarət dövriyyəsinin Preferensial Ticarət Sazişinin imzalanmasından sonra daha da artmasından məmnunluq ifadə olunub. Həmçinin gələn il Azərbaycan-Türkiyə hökumətlərarası komissiyanın iclasının keçirilməsi, eləcə də ölkələrimiz arasında əməkdaşlığın müxtəlif sahələrdə inkişaf perspektivləri müzakirə edilib.

Söhbət zamanı beynəlxalq təşkilatlar, Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlıq, təşkilatın daha da gücləndirilməsi, digər qardaş türk ölkələri ilə işbirliyinin dərinləşdirilməsinə dair fikir mübadiləsi aparılıb.

## MSK İlham Əliyevin prezidentliyə namizədliyinin irəli sürülməsini təsdiqləyib

Dekabrın 19-da Mərkəzi Seçki Komissiyasının (MSK) iclası keçirilib.

İclasda hakim Yeni Azərbaycan Partiyası tərəfindən İlham Əliyevin prezidentliyə namizədliyinin irəli sürülməsi məsələsi müzakirə olunub.

Müzakirələrdən sonra İlham Əliyevin növbədənkənar Azərbaycan Respublikasının Prezidenti seçkilərində namizədliyinin irəli sürülməsi təsdiqlənib.



## "COP29 beynəlxalq konfrans Azərbaycanda, Bakıda keçiriləcək"

Bu sözləri dövlət başçısı dekabrın 15-də BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un gələn il ölkəmizdə keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə keçirilən müşavirədə deyib.

O, bildirib: "Bu qərarı bütün dünya ölkələri bir neçə gün bundan əvvəl qəbul etmişdir və beləliklə, Azərbaycana növbəti dəfə böyük etimad və böyük hörmət göstərilmişdir. Biz buna layiqik, biz apardığımız siyasət nəticəsində dünya miqyasında çox güclü mövqelərə sahib olmuşuq. Azərbaycana beynəlxalq aləmdə olan hörmət günbəgün artır və biz bu hörməti öz əməlimizlə, işimizlə, siyasətimizlə qazanmışıq. Bizim müstəqil siyasətimiz, prinsipial mövqeyimiz, beynəlxalq hüquqa bağlılığımız, sədaqətimiz və eyni zamanda, ölkə ərazisində suverenliyin bərpa edilməsi bizə olan hörməti daha da artırdı.

Bu hadisənin önəmi, o cümlədən ondadır ki, bu qərar antiterror əməliyyatından iki ay yarım sonra qəbul olunmuşdur və beləliklə, bir daha bütün dünya ictimaiyyəti Azərbaycana öz dəstəyini ifadə etmişdir. Onu da bildirməliyəm ki, Bakıda COP29 konfransının keçirilməsi beynəlxalq aləmin hər bir üzvünün razılığı ilə mümkün olmuşdur. Yəni, burada yekdil mövqe bir daha özünü göstərdi.



Düzdür, antiterror əməliyyatından sonra bəzi Qərb ölkələri Azərbaycana əsassız ittihamlar irəli sürmüşdür. Bizə qarşı irəli sürülmüş bu ittihamların heç bir əsası yoxdur. Çünki Azərbaycan öz suveren ərazisində separatçılığa qarşı, işğalçılara qarşı antiterror əməliyyatı keçirərək beynəlxalq hüququn aliliyini özü bir daha təmin etmişdir və eyni zamanda, bütün humanitar normalara riayət edərək öz suverenliyini bərpa etmişdir. Bəzi Qərb ölkələri, onların arasında təbii ki, ənənəvi olaraq Fransa bununla barışmaq fikrində deyil. Halbuki artıq beynəlxalq birlik də görür ki, hətta Ermənistan bu vəziyyətlə barışıb və COP29 konfransının keçirilməsi bunu bir daha göstərir. Ancaq Fransada bəzi siyasi liderlər ermənilərdən daha çox erməni olmağa çalışırlar. Ancaq onlar da bu vəziyyətlə barışmağa məcbur olacaqlar.

Bir də bəzi hallarda beynəlxalq aləm, beynəlxalq birlik anlayışı Qərbdə təhrif edilir. Beynəlxalq birlik 30-40 ölkə deyil. Beynəlxalq birlik dünyanın bütün ölkələridir və bu ölkələr yekdilliklə Azərbaycana öz böyük dəstəyini göstərmişdir. Bu, birinci dəfə deyil. Biz Qoşulmama Hərəkatına dörd il ərzində uğurla sədrlik edirik və burada da bizim sədrliyimiz 120 ölkənin dəstəyi ilə mümkün olmuşdur, hətta sədrliyimiz bir il uzadılmışdır. Bu, artıq böyük bir göstərici idi. Dünyanın 120 ölkəsi Azərbaycana öz dəstəyini ifadə etmişdir. Bu dəfə isə bütün dünya ölkələri bu dəstəyi göstərmişdir.

İrimiqyaslı beynəlxalq tədbirlərin keçirilməsi təbii ki, üzərimizə böyük məsuliyyət qoyur. Ancaq biz bu günə qədər bir çox beynəlxalq tədbirlər keçirmişik. Hətta bu il Beynəlxalq Astronavtika Konqresini böyük müvəffəqiyyətlə keçirmişik. Onu da hər kəs bilir ki, bu mötəbər beynəlxalq tədbir ikinci dəfə Bakı şəhərində keçirilib. 50 il bundan əvvəl sovet Azərbaycanının paytaxtı olan Bakıda, bu il isə müstəqil Azərbaycanın paytaxtı olan Bakıda bu tədbir keçirilmişdir. Ancaq təbii ki, COP29 bu vaxta qədər keçirilmiş tədbirlərlə müqayisəyə gəlmir. Hətta Avropa Oyunlarını xatırlasaq, o vaxt 5 min idmançı və onları müşayiət edən təqribən 3 min qonaq gəlmişdir. Ancaq COP29-da 10 minlərlə xarici nümayəndə ölkəmizə gələcək, iki həftə ərzində Bakı dünyanın mərkəzi olacaq. Müəyyən ehtimallara görə, təqribən 70-80 min xarici qonaq bu müddət ərzində ölkəmizdə olacaq.

Hesab edirəm ki, COP29 dünyada ən mötəbər beynəlxalq tədbirlərdən biridir. Mən şübhə etmirəm ki, COP29 beynəlxalq konfransını da biz yüksək səviyyədə keçirəcəyik, bu, ölkəmizin, xalqımızın növbəti böyük uğuru olacaq. Eyni zamanda, Azərbaycan neft-qaz ölkəsi kimi bu sahədə də özünü göstərəcəkdir və dünyada hər kəs bir daha görəcək ki, bizim gündəliyimiz yaşıl enerji ilə bağlıdır. Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli hazırda bizim enerji siyasətimizin prioritetidir. Bu, reallıqdır və bütün dünya bunu bir daha görəcək".

*(əvvəli 1-ci səhifədə)*

2003-2023-cü illərdə ölkəmizin keçdiyi inkişaf yolu da təsdiq edir ki, Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən Prezident İlham Əliyev sayılıb-seçilən, öz xalqının milli maraqlarını hər zaman təmin etməyi bacaran liderlər sırasındadır və bunu biz yox, xarici siyasi və iqtisadi institutlar da təsdiq edirlər.

Amma bu da həqiqətdir ki, İlham Əliyevin Azərbaycanın siyasi həyatında özünün yüksək siyasi-diplomatik və liderlik keyfiyyətləri ilə fərqlənməsi, öz fəaliyyətində dövlətimizin milli maraqlarını hər şeydən uca tutması, respublikamızda və onun hüdudlarından kənarda nüfuzlu siyasətçi kimi tanınması hələ prezident seçilməsindən çox-çox əvvələ təsadüf edir. Bu baxımdan cənab İlham Əliyev hələ Azərbaycana rəhbərlik etməmişdən əvvəl də ölkəmizin siyasi və iqtisadi həyatında, beynəlxalq münasibətlərində çoxsaylı uğurların müəllifi olmuşdur.

2003-cü ildə prezident kimi Vətənə və xalqa sədaqət andı içən Prezident İlham Əliyev ölkəmizin inkişaf perspektivləri və gələcək prioritetlərlə bağlı öz proqramını bəyan edərək demişdi: *"Azərbaycan gələcəkdə çox zəngin və qüdrətli ölkəyə çevriləcəkdir. Neft strategiyasını davam etdirərək, qısa müddət ərzində ölkəmizi hərtərəfli inkişaf etdirəcəyik. Xüsusilə qeyri-neft sektoruna böyük diqqət göstəriləcəkdir. Yeni zavodlar, fabriklər istifadəyə veriləcəkdir. Sahibkarlığın inkişafı üçün tədbirlər planı, Azərbaycanda iqtisadi inkişaf proqramı hazırlanır. Bu çoxşaxəli inkişaf proqramı Azərbaycanı qısa müddət ərzində zəngin dövlətə çevirməyə imkan verəcəkdir. Bizdə bütün imkanlar – təbii sərvətlər, insan potensialı və ən önəmlisi, xalqın iradəsi vardır. Biz hamımız birləşərək və bir nöqtəyə vuraraq Azərbaycanı zəngin, qüdrətli dövlətə çevirəcəyik".*

Bəli, ötən 20 ildə Azərbaycanın keçdiyi inkişaf yolu ilk növbədə Ulu Öndər Heydər Əliyevin nə qədər müdrik və uzaqgörən şəxsiyyət olduğunu təsdiq edir. Və bu 20 ildə Azərbaycanın əldə etdiyi bütün uğurlar ondan xəbər verir ki, Prezident İlham Əliyev ilk dəfə dövlət başçısı kimi and içərkən verdiyi bütün vədləri layiqincə yerinə yetirir, qarşıya qoyduğu bütün milli hədəflərə inamla çatır. Ötən 20 ilin reallıqları Heydər Əliyev siyasi kursunun diktə etdiyi sülh, sabitlik və tərəqqi yolunun alternativsizliyini sübuta yetirmiş, inam və etimad üzərində qərarlaşan, gələcəyə hesablanan güclü dövlət konsepsiyası ilbəil uğurla gerçəkləşdirilmişdir. Geridə qoyduğumuz hər bir ilin yekunları təsdiq edir ki, Prezident İlham Əliyev Ulu Öndərin ən layiqli davamçısı olaraq onun başladığı, təməlini qoyduğu taleyüklü işləri ardıcıl surətdə və qətiyyətlə irəli aparır, ölkəmizin şərəfli tarixini yazır. Məhz Heydər Əliyevin dühasından və qüdrətli zəkasından ilham alan milli inkişaf strategiyası Azərbaycanın müstəqillik və inkişaf yolunda inamla addımlamasını təmin edir.



# Azərbaycan Mərkəzi Bankı faiz qərarını açıqlayıb

Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin qərarı ilə uçot dərəcəsi 8.5%-dən 8.0%-ə, faiz dəhlizinin aşağı həddi 7.0%-dən 6.5%-ə, faiz dəhlizinin yuxarı həddi isə 9.5%-dən 9.0%-ə endirilmişdir.

Bu qərar faktiki və proqnozlaşdırılan inflyasiyanın hədəf dəhlizində (4±2%) olması, inflyasiya gözləntilərinin stabilləşməsi, eləcə də valyuta bazarında izafi təklif nəzərə alınmaqla verilmişdir.

İdarə Heyətinin pul siyasətinə həsr edilmiş ötən iclasından bəri illik inflyasiya tempi gözlənilləndən daha sürətlə azalmışdır. 2023-cü ilin noyabrında 12 aylıq inflyasiya 2.6% təşkil etmişdir. Artıq 3-cü aydır ki, illik inflyasiya hədəf daxilində formalaşır. Qiymətlərin aylıq dinamikasında da ötən illə müqayisədə azalma davam edir. Noyabrda deflyasiya müşahidə olunmuş, dövrə qeyri-xarakterik olaraq istehlakçı qiymətlər indeksi 0.2% azalmışdır.

İllik inflyasiya xarici və daxili amillərin təsirləri ilə azalmışdır. Xarici mənşəli inflyasiyanın səngiməsi əsasən qlobal iqtisadi aktivliyin azalması və əksər ölkələrdə həyata keçirilən sərt pul siyasəti nəticəsində baş vermişdir. Qlobal əmtəə, xüsusilə də enerji və ərzaq qiymətlərində azalmanın davam etməsi ölkəyə inflyasiya idxalını azaltmışdır. Dünya Bankının məlumatına əsasən əmtəə qiymətləri indeksi noyabrda illik əsasda 18.3%, o cümlədən enerji qiymətləri üzrə 23.9%, qeyri-enerji qiymətləri üzrə 4.6% enmişdir. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) məlumatına görə isə ərzaq qiymətləri indeksi noyabrda illik əsasda 10.7% azalmışdır. Valyuta bazarında tarazlığın qorunduğu şəraitdə manatın nominal effektiv məzənnəsinin 2023-cü ilin 11 ayında 19.5% möhkəmlənməsi idxal inflyasiyasının azalmasında mühüm rol oynamışdır. Bu dövrdə daxili amillərdən qida emalı sənayesi məhsullarının istehsalçı qiymətləri azalmış (noyabrda illik 2.5% azalma), kənd təsərrüfatı istehsalçı qiymətlərinin artım tempi (noyabrda illik 4.1% artım) aşağı düşmüşdür. Bu amillər müəyyən zaman intervalında inflyasiyaya azaldıcı təsir göstərir. Hökumət və Mərkəzi Bank tərəfindən həyata keçirilən antiinflyasiya tədbirləri də inflyasiyanın azalmasına təsir göstərmişdir.

Tədiyə balansının cari əməliyyatlar hesabında iri həcmli profisitlə əlaqədar (9 ayda 6.7 mlrd. ABŞ dolları və ya ÜDM-in 12.5%-i) ilin əvvəlindən bəri Mərkəzi Bankda keçirilən valyuta hərraclarının 95%-də təklif tələbi üstələmişdir. Bu şəraitdə Mərkəzi Bankın valyuta bazarına müdaxiləsi alışyönlü olmuş 1.4 mlrd. ABŞ dolları təşkil etmişdir. Nəticədə Mərkəzi Bankın valyuta ehtiyatları 20.3% artaraq 10.8 mlrd. ABŞ dollarını keçmişdir.

Ötən iclasdan bəri pul siyasəti alətləri likvidliyin kənar amillərinin (avtonom amillər) monetar şəraitə təsirlərinin neytrallaşdırılması və bank sistemində likvidliyin effektiv idarə olunması məqsədilə tətbiq olunmuşdur. Həyata keçirilən tədbirlər eyni zamanda pul siyasətinin ötürücülüyünün gücləndirilməsinə xidmət etmişdir. Bu dövrdə banklar arasında milli valyutada həm təminatsız, həm də təminatlı pul bazarında bağlanan əqdlərin orta çəkili faiz dərəcələri faiz dəhlizinin dəyişiminə reaksiya vermişdir. Dekabr ayının ötən dövründə 1 günlük təminatsız əməliyyatlar üzrə orta faiz (1D AZIR) 7.7% və 1 həftəlik banklararası REPO faizi (1W AINAIB) 7.84% olmaqla faiz dəhlizinin daxilində formalaşmışdır.

Ortamüddətli dövrdə inflyasiyanın xarici amilləri arasında artırıcı və azaldıcı amillər mövcuddur. Geosiyasi gərginlik dünya bazarında qiymətlərin yenidən artmasına səbəb ola bilər. Beynəlxalq təşkilatlar 2024-cü ilə enerji qiymətləri proqnozlarını yüksək saxlamışlar. Bu da enerji idxal edən tərəfdaş ölkələrdə inflyasiya templərinə artırıcı təsir göstərə bilər. Eyni zamanda beynəlxalq təşkilatlar iqlim dəyişiklikləri və aşağı məhsuldarlığın ortamüddətli dövrdə ərzaq qiymətlərinə artırıcı təsirlərini risk olaraq qeyd edirlər. Qlobal iqtisadi aktivliyin gözlənildiyindən daha aşağı olması və əksər iqtisadiyyatlarda monetar şəraitin sərt olaraq qalması isə qlobal inflyasiya proseslərinə azaldıcı təsir göstərə bilər. Növbəti illərdə ticarət tərəfdaşlarında milli valyutaların uzunlaşmasının davam etməsi manatın nominal effektiv məzənnəsini möhkəmləndirməklə idxal inflyasiyasını azalda bilər.

İnflyasiyaya təsir edə biləcək başlıca daxili risk isə pul kütləsinin izafi genişlənməsidir. Cari ilin qalan dövründə fiskal sektorun reallaşmamış valyuta təklifinin Mərkəzi Bank tərəfindən alışı manatla pul bazasına artırıcı təsir göstərə bilər. Mövcud meyillərin davam etməsi halında 2024-cü ildə də Mərkəzi Bankın valyuta bazarına müdaxiləsinin alışyönlü olması ehtimalı var.

Faiz dəhlizinin parametrləri ilə bağlı növbəti qərarlar inflyasiya mühitində xarici və daxili amillərdən asılı olaraq veriləcəkdir. Qərarlar qəbul edilərkən maliyyə bazarlarında, o cümlədən valyuta bazarında gedən proseslər də nəzərə alınacaqdır.

Bu qərar 21 dekabr 2023-cü ildən qüvvəyə minir. Faiz dəhlizinin parametrləri ilə bağlı qərarların 2024-cü il üzrə ictimaiyyətə açıqlanması qrafiki bu ilin sonunda yayımlanacaqdır.

# Azad edilmiş ərazilərdə səs verəcək seçicilərin sayı açıqlanıb



"Azad edilmiş ərazilərdə 26 seçki məntəqəsi yaradılıb. Hər məntəqəyə orta hesabla təxminən 800-900 seçici düşür".

Bunu Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov jurnalistlərə açıqlamasında deyib. O qeyd edib ki, artıq azad olunmuş ərazilərdə 26 seçki məntəqəsi yaradılıb.

*"Orada təxminən 23 minə yaxın seçici səs verəcək. Hər məntəqəyə orta hesabla təxminən 800-900 seçici düşür. Bu, kifayət qədər yaxşı rəqəmdir"*, - deyə o əlavə edib.

Xatırladaq ki, dekabrın 7-də Prezident İlham Əliyev Azərbaycanda növbədənkənar prezident seçkilərinin elan edilməsi barədə sərəncam imzalayıb. Sərəncama əsasən, fevralın 7-də növbədənkənar prezident seçkiləri keçiriləcək.

# EIB Azərbaycana "yaşıl" layihələrdə dəstək göstərməyə hazırdır

Avropa İnvestisiya Bankı (EIB) həm dövlət, həm də özəl sektorlarda Avropa İttifaqı-Azərbaycan əməkdaşlığının prioritetlərinə cavab verən layihələrin maliyyələşdirilməsi imkanını nəzərdən keçirməyə hazırdır.

Bankdan verilən məlumata görə, EIB özünün Qlobal Təşəbbüsü çərçivəsində Azərbaycanla əməkdaşlıqda prioritet diqqəti "yaşıl" enerji, enerji səmərəliliyi, rabitəlilik, rəqəmsallaşma və dayanıqlı infrastruktura yönəldir.

*"Bank həmçinin, regional qoşulma sazişlərini, o cümlədən sualtı elektrik təchizatı, eləcə də Aİ və Cənubi Qafqaz regionu arasında "Black Sea Energy" sualtı kimi elektrik kabeli rəqəmsal kommunikasiyaları nəzərdən keçirməyə hazırdır"*, - deyə bankdan bildiriblər.

Bank nümayəndəsi EIB-in xüsusən Aİ "Global Gateway" təşəbbüsünün və "Şərq Tərəfdaşlığı" iqtisadi və investisiya planının icrasına fokuslandığını əlavə edib. *"Ölkədə bizim maliyyə dəstəyimizdən yararlana biləcək, eləcə də Aİ-nin siyasi məqsədlərinə və standartlarımıza cavab verən layihələr varsa, həmişə bu layihələrin maliyyələşdirilməsi məsələsini nəzərdən keçirməyə açığıq. Biz Azərbaycan nümayəndələri və dövlət sektorundan tərəfdaşlarla müxtəlif layihələrə potensial dəstəyimizlə bağlı daima təmasdayıq"*, - deyə mənbə bildirib.




# IFC ilə "yaşıl" enerji layihələri üzrə əməkdaşlıq müzakirə olunub



Energetika naziri Pərviz Şahbazov Beynəlxalq Maliyyə Korporasiyasının (IFC) Avropa, Latın Amerikası və Karib hövzəsi ölkələri üzrə regional vitse-prezidenti Alfonso Qarsia Moranın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Energetika Nazirliyindən bildirilib ki, görüşdə nazirlik və IFC arasında dənizdə külək enerjisindən istifadə də daxil olmaqla bərpa olunan enerji layihələri üzrə əməkdaşlıq məsələləri müzakirə olunub.

Nazir Azərbaycanda "yaşıl" enerjidən istifadənin genişləndirilməsi sahəsində IFC və Dünya Bankı Qrupu ilə əməkdaşlıq layihələri, o cümlədən dənizdə külək enerjisi üzrə Yol Xəritəsi, elektrik enerjisi şəbəkəsinin gücləndirilməsi və bərpa olunan enerji ixracı planları haqqında danışıb.

Ölkəmizin "yaşıl" inkişaf və qlobal iqlim hədəflərinə uyğun olaraq layihələrin vaxt itirmədən və səmərəli şəkildə həyata keçirilməsinin vacibliyi qeyd edilib.

IFC-nin vitse-prezidenti Azərbaycanın COP29 beynəlxalq konfransına ev sahibliyi ilə əlaqədar təbriklərini çatdırıb. Ölkəmizin unikal "yaşıl" enerji potensialına, bu sahədə iddialı hədəflərinə və əldə etdiyi nailiyyətlərə diqqət çəkərək, təşkilatın layihələrin həyata keçirilməsində texniki dəstək göstərməyə hazır olduğunu bir daha vurğulayıb.

Söhbət zamanı "yaşıl" enerjinin Xəzərdən Avropaya və Naxçıvandan Türkiyəyə ixracı, enerji keçidi, enerji effektivliyi, "yaşıl" hidrogen, elektromobillik və digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# "Yaşıl enerji məkanı" üzrə İşçi qrupunun növbəti iclası keçirilib

Energetika Nazirliyindən bildirilib ki, energetika nazirinin müavini Elnur Soltanovun sədrliyi ilə keçirilən iclasda paylayıcı şəbəkədə elektrik təchizatının yaxşılaşdırılması, elektroenergetika sistemində müstəqil təchizatçıların fəaliyyətinin təşviq edilməsi, bərpa olunan enerji infrastrukturunun genişləndirilməsi, bu sahədə informasiya sisteminin yaradılması, hidrogenin istehsalı sahəsi, istixana effekti yaradan qazların inventarlaşdırılması, energetika sektorunda karbon tutulması, enerji səmərəliliyinin təmin edilməsi və digər tədbirlərlə bağlı İşçi qrupu üzvlərinin rəy və təklifləri dinlənilib. İclasda strategiya sənədi üzrə növbəti illərdə icra ediləcək tədbirlər və hədəflər, onların tam, vaxtında, effektiv və maneəsiz həlli yolları ətrafında müzakirələr aparılıb.

Qeyd edilib ki, "Yaşıl enerji məkanı" İşçi qrupunda Energetika Nazirliyi və İİTKM ilə yanaşı, İqtisadiyyat, Ekologiya və Təbii Sərvətlər, Kənd Təsərrüfatı, Rəqəmsal İnkişaf və Nəqliyyat, Maliyyə, Fövqəladə Hallar nazirliklərinin, SOCAR, Mərkəzi Bank, Azərbaycan İnvestisiya Holdinqi, Dövlət Statistika Komitəsi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Dövlət Gömrük Komitəsi, Azərbaycan Milli Elmlər Akademiyası, "Azərsu", "Meliorasiya və Su Təsərrüfatı", "Azərenerji", "Azərişıq", "Azəristiliktəchizat" ASC-lərin nümayəndələri təmsil olunublar.

# ƏBƏDİYAŞAR LİDER



(əvvəli ötən sayımızda)

**Heydər Əliyevin enerji strategiyası Azərbaycanın inkişafının təməllərindən biridir**

Heydər Əliyevin siyasi rəhbər və dövlət xadimi kimi fəaliyyətinin ən mühüm tərəflərindən biri milli sərvətlərdən səmərəli istifadə, ən əsası bu prosesdə ölkənin maraq və mənafelərinin qorunmasıdır. *Müstəqillik dövründə xalqımızın nail olduğu ən böyük uğurlardan biri Heydər Əliyevin müəllifi olduğu yeni neft strategiyasının təntənəsi və Azərbaycan dövlətinə gətirdiyi siyasi və iqtisadi dividendlərdir.*

Ulu Öndər Heydər Əliyevin banisi olduğu Azərbaycanın yeni neft strategiyasından danışarkən dövlət müstəqilliyimizin bərpasından sonra neft sənayesində gedən prosesləri xatırlamamaq olmur. 1993-cü ilin təlatümlü günlərində, Azərbaycan vətəndaş müharibəsinin astanasında, dövlət kimi parçalanma ərəfəsində olduğu, Ermənistanın hərbi təcavüzünün genişləndiyi, ölkədə siyasi, iqtisadi və maliyyə böhranın dərinləşdiyi vaxtlarda bəzi Qərb dairələri və neft şirkətləri belə hesab edirdilər ki, Azərbaycan iqtidarı istənilən razılaşmaya gedəcək.

Lakin 1993-cü ildə siyasi hakimiyyətə gələn Heydər Əliyevin danışıqların məzmunu ilə tanış olmasından sonra hadisələr tamamilə başqa istiqamətdə inkişaf etdi. Xarici neft şirkətləri ilə danışıqlar faktiki olaraq dayandırıldı. Bu addımın nə qədər müdrik və uzaqgörən olduğunu sonrakı hadisələr göstərdi. Çünki bundan bir il sonra xarici şirkətlərlə aparılan neft danışıqları və onların uğurlu nəticələri, Heydər Əliyevin müəllifi olduğu yeni neft-qaz strategiyası Azrbaycan dövlətinin və xalqının milli maraqları üzərində qurulmuşdu.

İndi Azərbaycan xalqı ilk dəfədir ki, öz təbii sərvətlərinin əsl sahibi kimi çıxış edirdi. Məhz bu strategiyanın uğurla reallaşmasının nəticəsi olaraq dünyanın aparıcı neft şirkətləri Xəzərin Azərbaycan sektorunda neft hasilatına cəlb olundular. Heydər Əliyevin müəllifi olduğu yeni neft strategiyasının həyata keçməsində ilk addım olan və “Əsrin müqaviləsi” adı alan bu saziş ötən əsrin 90-cı illərində hərbi təcavüzə məruz qaldı, ciddi siyasi və iqtisadi sınaqlarla qarşılaşmış gənc Azərbaycan Respublikasının dövlət müstəqilliyinin mühüm təminatına çevrilərək, onun dünya birliyinə sıx inteqrasiyasını təmin etdi.

1994-cü il sentyabrın 20-də imzalanan “Əsrin müqaviləsi” regionda beynəlxalq enerji əməkdaşlığının bünövrəsini qoydu, Azərbaycan dövlətini öz hədəflərinə doğru aparan böyük bir yolun başlanğıcı oldu. Ölkəmiz tədricən dünya birliyində enerji təhlükəsizliyinin təmini baxımından etibarlı və strateji tərəfdaş kimi öz yerini möhkəmləndirdi. Qarşımızda açılan gələcəyin üfüqləri məhz bu ilk addımdan sonra görünməyə başladı. Bu saziş təbii sərvətlər amilinin Azərbaycanın gələcək inkişafındakı rolu barədə ictimai düşüncədə dolaşan mücərrəd təsəvvürləri konkretləşdirdi, qarşıdakı istiqamətlərə aydınlıq gətirdi. «Əsrin müqaviləsi» ilə Azərbaycan özünün halal sərvətlərinə sahib çıxmaq haqqını bütün dünyaya bəyan etdi, milli mənafelərimizi, iqtisadi və strateji maraqlarımızı qorumaq əzmini sərgilədi, bu müqavilə dövlət müstəqilliyimizin mühüm təminatına çevrildi. “Azəri”, “Çıraq” və “Günəşli” yataqlarından hasilat 26 il əvvəl – 1997-ci ilin noyabr ayında başladı.

Yeni neft strategiyasının reallaşması Azərbaycan iqtisadiyyatının, xüsusən sənayenin və neft sektorunun müasirləşməsi üçün təməl oldu: genişmiqyaslı islahatlar aparıldı, sənayenin şaxələndirilməsi həyata keçirildi.

Təkcə Azərbaycan yox, Qərb dövlətləri, Cənubi Qafqaz, Türkiyə və Mərkəzi Asiya ölkələri üçün də böyük strateji əhəmiyyət daşıyan «Əsrin müqaviləsi» ilə dünyanın neft sənayesi tarixində yeni bir dönəm başlandı.

“Əsrin müqaviləsi”nin imzalanmasından sonra qarşıda duran əsas məsələlərdən biri Xəzərin Azərbaycan sektorundan hasil olunacaq “qara qızıl”ın dünya bazarlarına çatdırılması idi. Bu sahədə görülən işlərin ilkin nəticəsi kimi 1999-cu il aprelin 17-də müstəqil Azərbaycanın tarixində fövqəladə əhəmiyyətli daha bir hadisə baş verdi. Bakı-Supsa neft kəməri və Gürcüstanın Qara dəniz sahilindəki Supsa ixrac terminalı istismara verildi.

Lakin bunlar Azərbaycanın perspektiv enerji siyasəti üçün yetərli deyildi və alternativ marşrutlar lazım idi. Bakı-Tbilisi-Ceyhan ideyasının ortaya çıxması da məhz neftin bir neçə kəmər vasitəsilə nəql olunması arzusundan doğmuşdu.

BTC-nin reallığa çevrilməsi, həqiqətən də, çox çətin mərhələlərdən keçməli oldu və nəhayət, bu məsələyə də Heydər Əliyev dühası son qoydu. Məhz Heydər Əliyev qətiyyətinin sayəsində 2002-ci il sentyabrın 18-də Azərbaycanın və Türkiyənin milli maraqlarına cavab verən, ermənipərəst siyasi dairələrin müxtəlif çabalarının əksinə olaraq Ermənistandan yan keçən BTC neft kəmərinin təməli qoyuldu. Heydər Əliyev 2002-ci il sentyabrın 18-də kəmərin təməlinin qoyulma mərasimində deyirdi: ***“...Müxtəlif yollar var idi, müxtəlif marşrutlar var idi. Ancaq biz Azərbaycan olaraq öz dostlarımızla - Türkiyə Cümhuriyyəti ilə, Gürcüstanla və təbiidir ki, bu layihədə iştirak edən şirkətlərlə birlikdə gələcəkdə hasil olunacaq nefti Bakı-Tbilisi-Ceyhan boru xətti ilə Türkiyənin Aralıq dənizindəki Ceyhan limanına çatdırmağı qərara aldıq. Bu qərarın özü də çox mübahisələr doğurdu. Çünki o vaxt həm bizim imzaladığımız müqaviləyə qarşı çıxış edənlər, həm də boru xəttinin məhz Bakı-Tbilisi-Ceyhan marşrutu ilə getməsinin əleyhinə çıxanlar var idi. Bunlar məlumdur. Bizə, yəni birinci növbədə Azərbaycana mane olurdular”.***

BTC 2006-cı il iyulun 13-də keçirilən açılış mərasimindən sonra həyata rəsmən vəsiqə aldı. Beləliklə, bu böyük enerji layihəsinin reallaşdırılması ilə Ümummilli Lider Heydər Əliyevin uzaqgörənliklə düşünülərək, həyata keçirilən neft strategiyası tarixi yolçuluğunda özünün ən uca zirvəsinə çatdı. Bütün dünyada «əsrin layihəsi» kimi dəyərləndirilən və üç ölkəni birləşdirən BTC-nin əfsanədən reallığa çevrilməsi müəllifi Heydər Əliyev olan Azərbaycanın neft strategiyasının, İlham Əliyev qətiyyətinin təntənəsini və eləcə də Azərbaycanın dünyanın və regionun söz sahibi olan ölkələrindən birinə çevrildiyini bariz şəkildə ortaya qoydu.

Enerji kəmərlərinin işə düşməsi Azərbaycana milyardlarla dollar gəlir gətirib. Ötən illər ərzində Azərbaycanın iqtisadi inkişafında həmin gəlirlər əhəmiyyətli dərəcədə rol oynamışdır. Azərbaycanın İlham Əliyevin rəhbərliyi ilə bugünkü inkişafının təməlində də məhz neft strategiyasının uğurları dayanır.

**Azərbaycan Şərqlə Qərb arasında mühüm nəqliyyat-logistika mərkəzidir**

Geniş və çoxşaxəli, mükəmməl infrastruktura malik, dövrün tələblərinə cavab verən yol-nəqliyyat şəbəkəsinə malik olmayan hansısa dövlətin dinamik inkişafından da söz açmaq qeyri-mümkündür. Bu reallığı böyük müdrikliklə qiymətləndirən ümummilli liderimiz Heydər Əliyev respublikanın əlverişli geostrateji mövqeyini, eləcə də beynəlxalq əhəmiyyətli qlobal kommunikasiya xətlərinin kəsişdiyi əlverişli coğrafi məkanda yerləşdiyini nəzərə alaraq, yol-nəqliyyat sisteminin tamamilə yenidən qurulmasını və modernləşdirilməsini özünün dərin elmi əsaslara söykənən iqtisadi inkişaf strategiyasının mühüm istiqamətlərindən biri kimi müəyyənləşdirmişdi.

Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşir və bu baxımdan əlverişli geostrateji mövqeyə malikdir. Ulu Öndər Heydər Əliyev Azərbaycanın beynəlxalq nəqliyyat dəhlizlərinə qoşulmasının ölkənin iqtisadi həyatında və qlobal proseslərdə iştirakında böyük rol oynadığını düzgün dəyərləndirirdi. Bu sahədəki uzaqgörən fəaliyyəti ilə Heydər Əliyev həm də beynəlxalq nəqliyyat dəhlizlərinin ideyadan praktik müstəviyə keçirilməsinə böyük töhfələr verdi, o cümlədən TRASEKA (Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizi) proqramının reallaşması üçün iştirakçı dövlətləri səfərbər etdi.

Avropa İttifaqının TRASEKA proqramı 1993-cü ilin may ayında Qafqaz və Mərkəzi Asiya ölkələrinin ticarət və nəqliyyat nazirlərinin (Azərbaycan, Ermənistan, Gürcüstan, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Türkmənistan) iştirakı ilə Brüsseldə keçirilmiş konfransda irəli sürülüb. Konfrans iştirakçıları tərəfindən TRASEKA texniki yardım proqramının icrasını nəzərdə tutan Brüssel Bəyannaməsi qəbul edilib.

TRASEKA-nın imkanlarını və respublikamızın potensialını böyük uzaqgörənliklə qiymətləndirən Ümummilli Liderin siyasi uzaqgörənliyi və səyləri nəticəsində 1998-ci ildə 9 ölkənin (Azərbaycan, Türkiyə, Gürcüstan, Ukrayna, Moldova, Rumıniya, Bolqarıstan, Özbəkistan, Qırğızıstan) dövlət başçılarının, 32 ölkənin və 13 beynəlxalq təşkilatın səlahiyyətli nümayəndələrinin iştirakı ilə Tarixi İpək Yolunun bərpasına həsr olunmuş konfrans məhz Bakıda təşkil olunmuş və həmin tədbirdə Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin həyata keçirilməsinin texniki və iqtisadi məsələlərini özündə əks etdirən “Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Saziş” imzalanmış və Bakı Bəyannaməsi qəbul edilmişdir.

Heydər Əliyevin bilavasitə təşəbbüsü ilə keçirilən beynəlxalq konfrans ölkəmizin müstəqilliyinin qorunması, iqtisadi təhlükəsizliyinin təmin edilməsi üçün tarixi hadisə kimi qiymətləndirildi. Heydər Əliyev konfransda demişdir: ***“... Qədim, böyük, tarixi İpək Yolunun bərpa olunması məsələsi ümumi, dünyəvi, qlobal bir məsələ kimi meydana çıxmışdır. Bu, yeni kommunikasiya, nəqliyyat xətləri yaratmaq, Avropanı Asiya ilə daha yaxın, əlverişli, təhlükəsiz və daha ucuz yollarla bağlamaq və bu vasitə ilə də ölkələr arasında iqtisadi əməkdaşlıq yaratmaq, onu inkişaf etdirmək və Avropa Birliyinin bu ölkələrə təsirini artırmaq məqsədi daşımışdır.”***

Əsas Çoxtərəfli Sazişin müddəalarına uyğun olaraq, TRASEKA Hökumətlərarası Komissiyasının Daimi Katibliyinin Bakı şəhərində yerləşdirilməsi qərara alınmış və 2001-ci il fevralın 21-də rəsmi açılışı olmuşdu. Beləliklə, Azərbaycan tarixi İpək Yolunun bərpa edilməsinə öz töhfəsini verməklə, əsas inkişaf trayektoriyalarının müəyyənləşdirilməsində mühüm rol oynamışdır.

Heydər Əliyev əmin idi ki, ölkəmizin qədim İpək Yolu nəqliyyat dəhlizində aktiv iştirakının təmin edilməsi çox faydalı olacaqdır. Qədim İpək Yolunun bərpası Azərbaycan üçün daimi kapital, daimi gəlir, daimi güclü siyasi mövqe, daimi inkişaf təməli demək idi. Bu isə ölkəmizin müstəqilliyini qorumaq, iqtisadi təhlükəsizliyini təmin etmək üçün müstəsna əhəmiyyət kəsb edən amildir.

Zaman Heydər Əliyevin bu məsələyə nə qədər müdrikcəsinə yanaşdığını təsdiq etdi. Çünki sonrakı illərdə Avrasiya nəqliyyat dəhlizinin, Transqafqaz dəhlizinin intensiv fəaliyyətinin Azərbaycanın sosial-iqtisadi həyatında böyük əhəmiyyəti olmuşdur. Bu, özünü əsasən yük daşınmalarından əldə olunan gəlirdə, dəniz və dəmir yol nəqliyyatı, boru nəqliyyatı üçün uzun dövr ərzində etibarlı bazarın yaranmasında, respublikada yük daşınması ilə bağlı infrastruktur sahələrin bərpasında, yeni iş yerlərinin açılmasında, Azərbaycanın iqtisadi təhlükəsizlik məsələlərinin həll edilməsində, Bakının bu magistral xəttin mərkəzində və Xəzər sahilində yerləşən ən iri liman kimi inkişafında göstərmişdir.

Ulu Öndərin layiqli siyasi davamçısı, möhtərəm Prezident İlham Əliyevin düşünülmüş, yeni dünya sisteminin müasir çağırışlarına cavab verən siyasi kursu Azərbaycanı regionun lider dövlətinə çevirmiş, beynəlxalq miqyasda etibarlı tərəfdaş kimi ölkəmizin nüfuzunu artırmışdır. Əlbəttə ki, bu məsələdə bir çox uğurlarımızla yanaşı, Azərbaycanın dövlətlərarası nəqliyyat-logistik münasibətlərin dərinləşməsinə verdiyi töhfələr, həmçinin bu prosesin sürətlənməsi üçün həyata keçirdiyi layihələr böyük rol oynamış, respublikamız beynəlxalq nəqliyyat qovşağına çevrilmişdir.

Respublikamızda hava limanlarının yenidən qurulması, yeni aeroportların istifadəyə verilməsi, dəmir yolları şəbəkəsinin inkişaf etdirilməsi, Çindən Avropaya yüklərin çatdırılması müddətinin dəniz daşımalarına nisbətən iki dəfədən çox azaldılmasını təmin edən Bakı-Tbilisi-Qars dəmir yolunun inşası, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının, o cümlədən Ələt Azad Ticarət Zonasının yaradılması Azərbaycanın beynəlxalq nəqliyyat qovşağına çevrilməsi ilə bağlı qarşıya qoyulan hədəflərə çatmağımızda böyük rol oynamışdır.

Ötən dövr ərzində Şimal-Cənub və Şərq-Qərb dəhlizləri üzrə avtomobil yolları şəbəkəsi də inkişaf etdirilmiş, beynəlxalq standartlara uyğun yeni yollar salınmışdır və bu proses indi də davam edir. Avtomobil yolları şəbəkəsinin yenidən qurulması və ya yeni yolların inşası Azərbaycanın məqsədyönlü siyasətinin tərkib hissəsi kimi, həm daxili nəqliyyat infrastrukturunun inkişafına töhfə vermiş, həm də respublikamızın Avrasiyanın nəqliyyat qovşağına çevrilməsi istiqamətində həyata keçirilmiş işləri uğurla tamamlamışdır. Ölkəmizin yol infrastrukturunun keyfiyyəti reytinqində Ümumdünya İqtisadi Forumunun avtomobil yollarının vəziyyətinə dair hesabatına əsasən MDB dövlətləri arasında 1-ci, Asiya qitəsində 10-cu, dünyanın 140 ölkəsi arasında isə 27-ci yerdə qərarlaşması Azərbaycanın yüksəlişini dünyaya bəyan edən nailiyyətlərdir.

Qarabağ və Şərqi Zəngəzurda inşa edilən magistral avtomobil yollarının istifadəyə verilməsi respublikamızın beynəlxalq nəqliyyat qovşağı kimi imkanlarını daha da artıracaq.

Respublikamızın beynəlxalq nəqliyyat qovşağı kimi imkanlarının daha da artması qloballaşan dünyamızın yeni geoiqtisadi çağırışları kontekstində ölkəmizin bu sahədə rolunu daha da artırar və strateji əhəmiyyət kəsb edir. Görülən işlər göstərir ki, yaxın gələcəkdə respublikamızın bu müstəvidə mövqeləri daha da güclənəcək.

**Heydər Əliyev siyasəti yaşayır və layiqincə davam etdirilir**

Bu gün Azərbaycan dövlətinin elə bir sahəsi, cəmiyyət həyatının elə bir istiqaməti yoxdur ki, orada Ümummilli Liderimizin möhtəşəm imzası, sanballı izi olmasın. Hər bir sahədə Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi inkişaf yolunu, onun ideyalarının uğurla davam etməsini aydın müşahidə edirik. Heydər Əliyevin ən böyük arzuları işğal altında olan torpaqlarımızın azad edilməsi, ərazi bütövlüyümüzün bərpası, bütün məcburi köçkünlərin doğma yurdlarına qayıtması idi. Ulu Öndər Azərbaycanı daha güclü etmək, xalqımızın daha gözəl günlərini görmək istəyirdi. Ulu Öndərin ruhu bu gün şaddır, çünki Azərbaycan hazırda onun ən layiqli siyasi davamçısı İlham Əliyevin rəhbərliyi ilə öz tarixinin ən güclü dövrünü yaşayır. İlham Əliyev Azərbaycanı gücləndirərək elə bir səviyyəyə çatdırdı ki, ordumuz Ermənistanın işğal siyasətinə son qoydu, torpaqlarımızı azad etdi. Bununla həm də Ulu Öndərin arzuları çin oldu, vəsiyyəti yerinə yetirildi.

Dahi Heydər Əliyevin əziz xatirəsinə həsr etdiyim yazını Ümummilli Liderin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2003-cü ildə andiçmə mərasimində dediyi aşağıdakı sözlərlə yekunlaşdırmaq istəyirəm: ***“Heydər Əliyevin siyasəti Azərbaycana böyük uğurlar gətiribdir. Bütün sahələrdə Azərbaycan inkişaf edir, uğurlar qazanır. Azərbaycan beynəlxalq aləmdə özünə layiq yerini tuta bilibdir, Azərbaycanın nüfuzu artıbdır. İndi Azərbaycanla hesablaşırlar, Azərbaycana hörmət edirlər. Regionda bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı ilə, onun milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir. Ancaq bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün, ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm”.***

Ötən 20 ildə Azərbaycanın keçdiyi inkişaf yolları, respublikamızda baş verən bütün pozitiv dəyişikliklər və torpaqlarımızın işğaldan azad edilməsi göstərir ki, Heydər Əliyev siyasəti yaşayır, layiqincə davam etdirilir. Vəfatının 20-ci ildönümündə respublikamızın keçdiyi tarixi inkişaf yoluna nəzər salmaqla bir daha Heydər Əliyevin əziz xatirəsini dərin ehtiramla yad edirik. Azərbaycan yaşadıqca Heydər Əliyev də yaşayacaq. Azərbaycan isə əbədi var olacaq.

**Ziyad SƏMƏDZADƏ,**
**akademik**

# Tikinti sektorunun inkişafında qadınların rolu müzakirə edilib





***"Tikinti sektorunun inkişafında qadınların rolu, problem və perspektivlər" mövzusunda keçirilən konfransda tikinti sektorunda qadınların fəaliyyətinin genişləndirilməsinə, qadınların sahibkarlıq fəaliyyətinə təşviqinə, dövlət-özəl sektor əməkdaşlığı çərçivəsində dəstək tədbirlərinə dair fikir mübadiləsi aparılıb.***

Dünya Bankı Qrupunun "Business Ready" hesabatında tikinti sektorunda çalışan qadınların və bu sahədə fəaliyyət göstərən qadın sahibkarların azlıq təşkil etməsi qeyd edilir. Bu və digər bu kimi beynəlxalq hesabatlarda müvafiq göstərici üzrə ölkəmizin mövqeyinin yaxşılaşdırılması, eləcə də qadınların tikinti sektorunda biznes fəaliyyətinə təşviq olunması və bu sahədə çalışan sahibkar qadınların fəallığının artırılması üçün sorğuların və Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) dəstəyi ilə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

Bu istiqamətdə görülən tədbirlər çərçivəsində dekabrın 13-də "Bakı KOB evi"ndə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) təşkilatçılığı ilə "Tikinti sektorunun inkişafında qadınların rolu, problem və perspektivlər" mövzusunda konfrans keçirilib.

Qadınların tikinti sektorunda biznes fəaliyyətinə təşviq olunması, inkişaf problemlərini araşdırmaqla müvafiq tədbirlərin görülməsi məqsədilə təşkil olunan konfransda millət vəkilləri, müvafiq dövlət qurumlarının, ali təhsil müəssisələrinin, biznes assosiasiyalarının nümayəndələri və sahibkarlar iştirak ediblər.

Konfransda Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov, Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova və İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov, Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev, Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyasının İdarə Heyətinin sədri Səkinə Babayeva, Kiçik və Orta Biznes Subyektləri və Klublarının Assosiasiyasının sədri Nigar Ələsgərova çıxış ediblər. Çıxışçılar ölkəmizin sosial-iqtisadi inkişafında qadınların rolu, dövlət tərəfindən sahibkarlığın inkişafına göstərilən dəstək tədbirləri, qadınların sahibkarlıq fəaliyyətinə təşviqi, biznesdə, xüsusilə də tikinti sektorunda qadınların aktivliyinin artırılması, onların işgüzar əlaqələrinin genişləndirilməsi, dövlət-sahibkar əməkdaşlığı çərçivəsində həyata keçirilən birgə layihələr barədə məlumat veriblər.

Konfrans qadınların tikinti sektorunda biznes biliklərinin və bacarıqlarının artırılması üçün birgə tədbirlərin təşkilinə dair fikir mübadiləsi ilə davam edib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# Qışda TAP vasitəsilə tədarük olunacaq qazın həcmi proqnozlaşdırılıb




Trans-Adriatik boru kəməri (TAP) vasitəsilə 2023-2024-cü il qış mövsümündə Avropaya qaz tədarükü gündəlik 32 milyon kubmetr olacaq.

Trend bu barədə Oksford Enerji Tədqiqatları İnstitutuna (OIES) istinadən xəbər verir.

***"Azərbaycandan Avropaya TAP vasitəsilə ixrac Türkiyə-Yunanıstan sərhədində ölçmələrə görə gündəlik 30-34 milyon kubmetr diapazonu arasında olub, bu səbəbdən qışda tədarüklərin gündəlik 32 milyon kubmetr olacağını ehtimal edirik"***, - deyə OIES-dən bildiriblər.

Xatırladaq ki, Cənub Qaz Dəhlizinin Avropa hissəsi olan TAP vasitəsilə hər il İtaliyaya səkkiz milyard kubmetr, Yunanıstan və Bolqarıstanın hər birinə isə bir milyard kubmetr həcmində qaz nəql olunur.

31 dekabr 2020-ci ildə Azərbaycan qazının Cənub Qaz Dəhlizi vasitəsilə Avropaya nəqlinə başlanılıb. Azərbaycan tarixdə ilk dəfə öz təbii qazını boru kəmərləri ilə Avropa bazarına çıxarıb.

Dünyada təbii qazın ən iri idxalçısı olan Avropa bazarına birbaşa çıxışla Azərbaycan öz ixrac imkanlarını şaxələndirib.

# "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz"dən 625 milyon tondan çox neft nəql edilib



Cari ilin yanvar-noyabr ayları üzrə ölkədə 27,6 milyon ton neft (kondensatla birlikdə) hasil edilib.

Energetika Nazirliyindən Trend-ə bildirilib ki, Respublika üzrə neft hasilatının 16,4 milyon tonu "Azəri-Çıraq-Günəşli"nin, 3,9 milyon tonu (kondensat) "Şahdəniz"in, 0,24 milyon tonu (kondensat) "Abşeron" yatağının payına düşüb. SOCAR üzrə neft (kondensatla birlikdə) hasilatı 7,1 milyon ton təşkil edib. Hesabat dövründə 23,1 milyon ton neft (kondensatla birlikdə) ixraca nəql olunub. Bunun 20,2 milyon tonu konsorsiumun, 2,9 milyon tonu isə SOCAR-ın payına düşür.

"Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqları istismara veriləndən cari il dekabrın 1-dək 627,4 milyon ton neft (kondensatla birlikdə) hasil edilib. "Azəri-Çıraq-Günəşli"dən 583,3 milyon ton neft, "Şahdəniz"dən isə 44,1 milyon tona yaxın kondensat çıxarılıb. Bundan 625,4 milyon tonu ixraca nəql edilib.

Ölkədə neftin emalı 2023-cü ilin yanvar-noyabr ayları üzrə 6 milyon tona yaxın təşkil edib.

# İqtisadi subyektlərin rəhbərlərinin nəzərinə!

**Azərbaycan Respublikasının Auditorlar Palatası nəzərinizə çatdırır ki, qanunvericiliyin tələblərinə uyğun olaraq aşağıda göstərilən iqtisadi subyektlər 2023-cü il üzrə maliyyə hesabatlarının düzgünlüyünü yoxlatdırmaq üçün müstəqil (kənar) auditor cəlb etməlidirlər:**

| Sıra №si | Məcburi audit subyektləri | Məcburi auditdən keçmənin qanunvericilikdə təsbiti və əsası |
|---|---|---|
| 1. | İctimai əhəmiyyətli qurumlar | "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının 2004-cü il 29 iyun tarixli 716-IIQ saylı Qanununun 12-ci maddəsinə əsasən |
| 2. | Məhdud məsuliyyətli cəmiyyətlər | Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 91.4-cü maddəsində nəzərdə tutulan şərtlərlə 2019-cu il 03 may tarixli 1584-VQD |
| 3. | Səhmdar cəmiyyətləri | Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 107.6-cı maddələrində nəzərdə tutulan şərtlərlə 2019-cu il 03 may tarixli 1584-VQD |
| 4. | Banklar və digər kredit təşkilatları | "Banklar haqqında" Azərbaycan Respublikasının 2004-cü il 16 yanvar tarixli 590-IIQ saylı Qanununun 8, 9, 44, 45, 46-cı və s. maddələrinə əsasən |
| 5. | Sığorta təşkilatları və cəmiyyətləri | "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2007-ci il 25 dekabr tarixli 519-IIIQ saylı Qanununun 74-cü və 93-cü maddələrinə əsasən |
| 6. | İnvestisiya fondları | "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasının 2010-cu il 22 oktyabr tarixli 1101-IIIQ saylı Qanununun 26-cı və 48-ci maddələrinə əsasən |
| 7. | Maliyyə-sənaye qrupları | "Maliyyə-sənaye qrupları haqqında" Azərbaycan Respublikasının 1996-cı il 23 aprel tarixli 69-IQ №-li Qanununun 16-cı və 17-ci maddələrinə əsasən |
| 8. | Birləşdirilmiş (konsolidə edilmiş və icmal) hesabatlar təqdim edən hüquqi şəxslər (holdinqlər) | "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının 2004-cü il 29 iyun tarixli 716-IIQ saylı Qanununun 12.3-cü maddəsində nəzərdə tutulan şərtlərlə |
| 9. | Dövlət zəmanəti ilə kredit alan və ya dövlət borcunun xərclənməsi ilə bağlı layihələrdə iştirak edən, həmçinin büdcədən subsidiya, subvensiya, qrant və ya müəyyən səlahiyyətlərin yerinə yetirilməsi ilə bağlı büdcə vəsaiti ayrılan kommersiya təşkilatları | "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının 2004-cü il 29 iyun tarixli 716-IIQ saylı Qanununun 12.2-ci maddəsinə əsasən |
| 10. | Publik hüquqi şəxslər | "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 97-VQ saylı Qanununun 12-1-ci və Publik hüquqi şəxslərin nizamnamələrinə əsasən |
| 11. | Siyasi partiyalar | "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının 2004-cü il 29 iyun tarixli 716-IIQ saylı Qanununun 14.6-cı maddəsinə əsasən |
| 12. | Kənd təsərrüfatı kooperativləri | "Kənd təsərrüfatı kooperasiyası haqqında" Azərbaycan Respublikasının 2016-cı il 14 iyun tarixli № 270-VQ saylı Qanununun 5.4-cü maddəsinə əsasən |
| 13. | Bələdiyyələr | "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli № 772-IQ saylı Qanununun 13-cü maddəsinə əsasən |
| 14. | İnvestisiya şirkətləri, fond birjaları, klirinq təşkilatları və investisiya fondları | "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli № 1284-IVQ saylı Qanununun 61-ci maddəsinə əsasən |

- Audit yoxlaması məcburi və ya könüllü (təsərrüfat subyektlərinin öz təşəbbüsü ilə) ola bilər. Qanuna görə öz maliyyə hesabatlarını dərc etdirilməli olan təsərrüfat subyektləri üçün, habelə qanunla bilavasitə nəzərdə tutulmuş hallarda həyata keçirilməli olan audit məcburi, digər hallarda isə könüllüdür;
- Müstəqil (kənar) audit ölkə iqtisadiyyatında maliyyə şəffaflığının təmin olunmasında, maliyyə vəsaitlərindən səmərəli və təyinatı üzrə xərclənməsində, iqtisadi cinayətkarlığa və korrupsiyaya qarşı mübarizədə, kölgə iqtisadiyyatının azaldılmasında əvəzsiz rola malikdir və auditorlar tərəfindən məcburi və ya könüllü auditlərin nəticələri üzrə verilən auditor hesabatının (auditor rəyinin) iqtisadi subyektlərin maliyyə hesabatlarında yol verilən nöqsan və çatışmazlıqların vaxtında aşkar edilməsində və aradan qaldırılmasında çox böyük əhəmiyyəti var;
- İqtisadi subyektlər auditor seçimində müstəqildirlər. Sərbəst auditorlar və auditor təşkilatları barədə məlumatları Azərbaycan Respublikası Auditorlar Palatasının internet səhifəsindən əldə edə bilərsiniz (www.audit.gov.az);
- Auditorlar Palatası bu istiqamətdə sizin hər bir sorğunuzu cavablandırmağa və zəruri dəstək göstərməyə hazırdır.

**Azərbaycan Respublikasının
Auditorlar Palatası**

# Ölkəyə gətirilən buğdanın qiyməti kəskin azalıb

2023-cü ilin yanvar-noyabr aylarında Azərbaycana 283 milyon 377 min ABŞ dolları dəyərində 1 milyon 94 min ton buğda idxal edilib.

Bu barədə Dövlət Gömrük Komitəsi məlumat yayıb.

Bildirilib ki, bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə həcm baxımından 6,3% və ya 72,9 min ton, məbləğ baxımından isə 28,8% və ya 114,6 milyon ABŞ dolları azalıb. 2022-ci ilin ilk 11 ayı ərzində Azərbaycana 389 milyon ABŞ dolları dəyərində 1 milyon 167 min ton buğda idxal edilib.

Qeyd edək ki, hesabat dövründə ölkəyə gətirilən buğdanın bir tonunun orta qiyməti 22,3% və ya 74,2 dollar azalaraq 258,8 dollara (440 manat) bərabər olub. Bu göstərici ötən ilin müvafiq dövründə 333 dollar (566,1 manat) təşkil edib.

Əlavə edək ki, cari ilin noyabr ayında isə idxal edilən buğdanın orta idxal qiyməti ötən ilin noyabr ayı ilə müqayisədə 23,7% azalaraq 435,28 manata bərabər olub. 2022-ci ilin noyabr ayında ölkəyə idxal edilmiş ərzaqlıq buğdanın bir tonunun orta qiyməti 570,75 manat təşkil edib.

Xatırladaq ki, cari ilin ilk 11 ayında buğda idxalı Azərbaycanın ümumi idxalının 1,79%-nə bərabər olub.

# Elektrik enerjisinin ixracından gəlirlər artıb

Azərbaycan bu ilin yanvar-noyabr aylarında 3 923 216,05 min kVt-saat elektrik enerjisi ixrac edib.

Trend-in Dövlət Gömrük Komitəsinin dərc etdiyi göstəricilər əsasında apardığı hesablamalara görə, hesabat dövründə Azərbaycanın ixrac etdiyi elektrik enerjisinin həcmi 2022-ci ilin müvafiq göstəricisi ilə müqayisədə 4,7 dəfə çoxdur. Məlumata görə, hesabat dövründə ixrac edilən elektrik enerjisinin dəyəri 379 300,09 min ABŞ dolları təşkil edib, bu da illik müqayisədə 5,8 dəfə çoxdur. Hesabat dövründə elektrik enerjisinin ümumi qeyri-neft sektoru üzrə ixracda payı 12,5% təşkil edib.

Qeyd edək ki, bu göstəricilər hesabat dövründə gömrük orqanlarında rəsmiləşdirilməsi başa çatdırılmış ixrac olunan elektrik enerjisinə dair məlumatlar nəzərə alınaraq hesablanıb.

Xatırladaq ki, Dövlət Statistika Komitəsinin məlumatına görə, bu il Azərbaycanda 24 090,6 mln. kVt-saat elektrik enerjisi istehsal olunub, bu da illik müqayisədə 0,8% artım deməkdir.

Hər xalqın, hər millətin özünü dərk etməsində, tərəqqisində nadir şəxsiyyətlərin həlledici rolu olub. Onların hər biri tarixin səhifələrinə öz möhürünü vurub, imzasını qoyub. Bu şəxsiyyətlər tarixin ayrı-ayrı dövrlərində yaşasalar da, məqsədləri, amalları bir olub - vətəninə, xalqına, millətinə təmənnasız xidmət etmək. Bəlkə də bu yadigar qalacaq insanların hamısını birləşdirən elə vətən eşqi olub. Çünki vətəni sevməyən, onun azadlığı, tərəqqisi üçün əlindən gələni əsirgəyənlərin həmişəlik yaddaşlarda yaşamaqları mümkün deyil. Akademik Ziya Bünyadov Vətənin yetirdiyi oğullar arasında ən parlaq simalardan biri, bütün həyatı gələcək nəsillərə nümunə göstəriləcək əfsanəvi şəxsiyyət olmuşdur.

İstedadlı alim, görkəmli ictimai xadim, mütəfəkkir, qəhrəman, şəxsiyyət, sadə və gözəl insan... Bütün bunlar bir adama mənsub olsa da, hamısı böyük hərflə yazılmalıdır... Çünki Ziya Bünyadov, sözün əsl mənasında böyük alim, böyük insan, qeyrətli vətəndaş idi.

Ziya Bünyadov dünya miqyaslı alim idi. O, Şərqdə ən böyük elmi mərkəzlərdən biri olan Azərbaycan EA-nın Şərqşünaslıq İnstitutu yaradıldığı gündən ömrünün sonuna qədər burada elmin inkişafı üçün var qüvvəsilə çalışmışdır. Bu elm ocağına akademiklərdən Həmid Araslı, Əbdülkərim Əlizadə, Əlisöhbət Sumbatzadə və Ziya Bünyadov kimi görkəmli simalar rəhbərlik etmişlər.



# O, DAHİLİK ABİDƏSİ İDİ

Ziya Bünyadov ensiklopedik biliyə malik alimlərimizdən idi. Onu haqlı olaraq "bilik xəzinəsi" adlandırırdılar. O, orta əsrlər və mənbəşünaslıq üzrə elmi məktəbin banisi idi. Heç şübhəsiz ki, Z.Bünyadovun tədqiqatları dünya şərqşünaslıq elminin zənginləşməsinə uzun müddət xidmət edəcəkdir. Ona görə də XX əsrin II yarısında Şərq aləmində Ziya Bünyadov ən yüksək səviyyəli tədqiqatları ilə şərqşünaslıq elmini zənginləşdirən alimlərdən birincisi idi desək, səhv etmərik.



Ziya Bünyadovun xalq qarşısında xidməti həmçinin onun ictimai elmlərə böyük diqqət yetirməsilə bağlıdır. XX əsrdə Azərbaycanda digər elm sahələri kimi, ictimai elmlər də sürətlə inkişaf etmişdir. Bu gün də xalqımızın tarixi, ədəbiyyatı, mədəniyyəti, iqtisadiyyatı ilə bağlı tədqiqatlar Azərbaycanın müstəqil dövlət kimi formalaşması, onun beynəlxalq aləmdə imicinin artması üçün son dərəcə vacibdir. Bu baxımdan akademik Ziya Bünyadovun geniş və məhsuldar fəaliyyəti hamı üçün nümunə ola bilər.

Ziya Bünyadov 50-ci illərin ortalarından ömrünün sonuna qədər ictimai elmlərin inkişafı, onun qorunması sahəsində əsl mübariz kimi çalışmışdır. O, Elmlər Akademiyasının vitse-prezidenti kimi respublikada ictimai və humanitar elmlərin inkişafı, onun inkişafının təkmilləşməsi, bu sahədə formalaşan alimlərin əsl vətənpərvər, ziyalı kimi yetişməsi üçün çox səylər göstərirdi.

O, ilkin orta əsrlər və orta əsrlər tariximizlə, dini dayaqlarımızla bağlı ən möhtəşəm əsərlərin həyat üzü görməsində fəal iştirak etmişdir.

Müqəddəs Qurani-Kərimin ana dilimizə çevrilməsində də Ziya Bünyadovun əvəzsiz xidmətləri olmuşdur. O, bu işi professor Vasim Məmmədəliyevlə başlayanda çox əziyyətlərlə üzləşməli olmuşdu. Bu müqəddəs kitabı yalnız mükəmməl, ensiklopedik biliyə malik olan insanlar tərcümə edə bilərdi. Bu vəzifəni yerinə yetirmək üçün Şərq aləmini, islam tarixini dərindən öyrənmək, ərəb dilini səlis bilmək lazım idi. Bütün bunlar isə Ziya Bünyadovda var idi və islam dünyasının müqəddəs kitabının yüksək səviyyədə çap olunmasına şərait yaratdı. Təkcə bu fakt, yəni islam dininin müqəddəs kitabı olan Qurani-Kərimin Azərbaycan dilinə tərcümə edilməsinə başçılıq etməsi Ziya Bünyadovun adının Azərbaycan xalqının tarixində əbədiləşdirilməsinə kifayət edərdi.

Ziya Bünyadov vətənpərvər, ana torpağına bağlı bir insan idi. Həm də bu müqəddəs bağlılıq onun dərin elmi tədqiqatları, Azərbaycan xalqının tarixinin düzgün araşdırılması ilə qırılmaz vəhdət təşkil edirdi.

Ziya Bünyadov bütövlükdə keçmiş SSRİ məkanında və onun hüdudlarından kənarda da erməni millətçilərinin, erməni daşnaklarının haqsız iddialarına qarşı prinsipial mübarizə aparırdı. Böyük alim konkret, zəngin tarixi faktlar gətirməklə Azərbaycan xalqının ədalətli mövqeyi barədə beynəlxalq məclislərdə alovlu və əsaslı çıxışlar edirdi.

Ziya Bünyadov erməni millətçiləri üçün çox təhlükəli şəxsiyyət idi. Onun əsərlərində, hətta erməni mənbələrinə əsaslanaraq apardığı tədqiqatlarda ermənilərin yeritdikləri çirkin siyasətin mahiyyəti aşkar olunurdu. Tarixi saxtalaşdırmaqda, özlərini başqa millətlərdən üstün tutmaqda ad çıxarmış erməni tarixçiləri "Ziya Bünyadov həddi"ni aşa bilmir, yarı yolda ifşa olunurdular.

Bir hadisəni yada salmaq istəyirəm. 1966-cı ildə Elmlər Akademiyasının partiya konfransının iclası keçirilirdi. O vaxtlar mən EA İqtisadiyyat İnstitutunda işləyirdim, eyni zamanda EA Komsomol Komitəsinin katibi idim. Partiya konfransında Azərbaycan KP MK-nın birinci katibi Vəli Axundov da iştirak edirdi. Yaxşı yadımdadır, akt zalına qalxarkən pillələrin üstündə Vəli Axundovla Ziya Bünyadovun səmimi və ciddi söhbətinin şahidi oldum. Ziya Bünyadov Vəli Axundova deyirdi ki, ermənilər məni rahat buraxmır, məni təhqir edir, mənə hücumlar edirlər, ancaq mən özümü başımla da, silahla da qorumağa hazıram... V.Axundov ona diqqətlə qulaq asdıqdan sonra yanındakı yoldaşlara nə isə tapşırdı...

Həmin il Ziya Bünyadovun böyük marağa səbəb olan "Азербайджан в VI-VII веках" monoqrafiyası çapdan çıxmışdı. Kitabda gətirilən faktlar, çıxarılan elmi nəticələr erməni millətçilərinin Azərbaycana qarşı bir sıra fitnəkar fikirlərini alt-üst edirdi. Ona görə də erməni millətçiləri Ziya Bünyadova qarşı hər cür fitnəkarlığa əl atırdılar. Amma Ziya Bünyadova bata bilmirdilər.

Bu gün Qarabağ probleminin kəskinləşdiyi, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsinin ciddi problem kimi mövcud olduğu şəraitdə onun yeri necə də görünür. Çünki Ziya Bünyadovun sözünün kəsəri və qiyməti var idi. O, böyük alim, böyük ziyalı, böyük şəxsiyyət kimi insanları milli mənafe, milli birlik ətrafında birləşdirmək istedadına malik idi.

Ziya Bünyadovun nəhəngliyi respublikamız müstəqillik əldə etdikdən sonra özünü daha qabarıq büruzə verirdi. Həmin dövrdə respublikada ictimai-siyasi hadisələr çox gərgin inkişaf edirdi. Belə bir vəziyyətdə çoxları özünü itirir, tez-tez fikirlərini, mövqelərini dəyişir, necə deyərlər, külək əsən yerə səmt götürürdülər. Amma Ziya Bünyadov ömrünün son dəqiqələrinə qədər fikrindən dönmədi, heç kimin qarşısında əyilmədi. O, başa düşürdü ki, Azərbaycanın müstəqilliyini qorumaq üçün xalqın taleyilə oynamaq olmaz. O, meydana çıxan "siyasətbazlar"a kəskin sözü ilə müraciət edir və onları millətin tərəqqisinə zidd olan əməllərdən çəkinməyə çağırırdı.

90-cı illərin əvvəllərində Azərbaycan Elmlər Akademiyasının dağılmaq təhlükəsi var idi. Ziya Bünyadov bu müqəddəs elm məbədinin dağılmasını irəli sürən üzdəniraq, elmdən xəbəri olmayan adamlara, elmə təsadüfən gələn, antimilli, antivətən mövqeyində duran bu "ziyalı"lara tutarlı cavablar verirdi. Onu da unutmayaq ki, o illər çox çətin illər idi.

Ziya Bünyadov Azərbaycanı ən mötəbər, yüksək səviyyəli məclislərdə təmsil edirdi. O, Milli Məclisin deputatı kimi də böyük işlər görürdü. Ziya Bünyadovun tariximizin "ağ ləkələri" olan işləri açmaqda xidməti əvəzsizdir. O, Dövlət Təhlükəsizlik Komitəsinin arxivini araşdıraraq, onun materiallarından istifadə etməklə, repressiya qurbanları haqqında respublika mətbuatında silsilə məqalələr dərc etdirmişdir.

Ziya Bünyadovun alovlu çıxışları, çox təsirli məqalələri sovet dövrü tariximizin müəyyən bir mərhələsinə işıq saçmışdır. Bu böyük insan hərdən də olsa, istirahət etməyi xoşlayardı. Ancaq onun istirahəti də ənənəvi istirahət normalarından uzaq idi. Ziya Bünyadovun çox gərgin, məhsuldar, bəzən də əsəblə keçən iş günlərinin əzab-əziyyəti ömür yoldaşı Tahirə xanımın diqqəti, qayğısı sayəsində bir qədər unudulurdu.

Ziya Bünyadovla Xəzərin sahilində gəzdiyim günləri xatırlayıram. Dənizin qoynunda xəyala dalmaq onun çox sevimli adəti idi. Saatlarla söhbət edərdik. Azərbaycanın ictimai, sosial-iqtisadi problemlərinə dair məsələlərdən yorulmadan danışardıq. Mən Mərkəzi Komitədə, Dövlət Plan Komitəsində, Ali Sovetdə çalışdığım zamanlar da onunla tez-tez təmasda olur, məsləhətlər alırdım.

O, bizim Buzovnadakı evimizdə, necə deyərlər, ata yurdumuzda da çox olub. O, gələndə bütün məhəllə bilirdi ki, Ziya Bünyadov bizim qonağımızdır və onu görmək üçün hamı evimizin ətrafına yığışardı. Hər gəlişi böyük sevinclə qarşılanardı. Ailəmiz onu çox sevirdi. Uşaqla uşaq, böyüklə böyük idi Ziya Bünyadov. Sadəliyi böyüklüyündən irəli gəlirdi.

İlk baxışdan sadə görünən bu insan hərdən çox zəhmli olurdu. Bəzən olduqca sərt, hətta bir qədər kobud sözləri çoxlarına, onu yaxşı tanımayanlara qəribə görünürdü. Amma çoxları bilmirdi ki, bu böyük insanın geniş ürəyi, incə qəlbi var. Hərdən uşaq kimi ərköyün, hərdən də ağsaqqal kimi çox ciddi olurdu. Belə idi Ziya Bünyadov. Ömrü boyu mübarizə aparmaq üçün doğulmuşdu elə bil. Heç nəyə biganə qala bilmirdi. Sərt çıxışları ilə Azərbaycan xalqının taleyilə oynayanları, xalqın sərvətini talayanları, müstəqilliyinə biganə olanları həmişə qamçılayırdı. Bəlkə də elə bütün bunlar - onun mübarizliyi, liberal olmaması, Azərbaycanın gələcəyinə qəti inamı, bu istiqamətdə yorulmaz fəaliyyəti Azərbaycan xalqının düşmənlərini narahat edirdi. Laqeydlik ondan uzaq idi. Axı, vətəninə, xalqına, millətinin gələcəyinə necə laqeyd olaydı?!

Ziya Bünyadovdan bəhs edərkən onun əsl qəhrəmanlığından danışmamaq ən azı günah olardı. Bəli, Ziya Bünyadov hər şeydən əvvəl qəhrəman idi. Təkcə ona görə yox ki, Böyük Vətən müharibəsindən qalib kimi qayıtmışdı. Həm də ona görə ki, sonralar da həmişə vətəninin keşiyində durub, onun azadlığı uğrunda mübarizə aparıb, son nəfəsinə qədər tutduğu mövqedən dönməyib...

Bütün Avropanı diz çökdürmüş faşist Almaniyasının apardığı müharibədən Ziya Bünyadov qələbə ilə qayıtmışdı. İnanmaq çətin olsa da, Ziya Bünyadov öz vətənində qətlə yetirildi. Namərd gülləsinə tuş gəldi. Vəhşicəsinə susduruldu. Ziya Bünyadova dəyən güllə bütün Azərbaycana dəyən güllə idi. Bunu adi terror aktı kimi qiymətləndirmək ən azı mənəviyyatsızlıqdır.

Ölümü də ölümsüzlüyündən xəbər verir. Akademik Ziya Bünyadov itkisi Azərbaycan xalqı üçün, Azərbaycan elmi üçün ən ağır itki oldu. Ziya Bünyadovun yoxluğu həmişə hiss ediləcək. Vətənin layiqli oğlu olan Ziya Bünyadovun adını xalqımız həmişə minnətdarlıqla yaşadacaqdır. Onun adı həmişə kamillik, ədalət, cəsarət rəmzi kimi nəsillərə nümunə olacaqdır.

**Akademik
Ziyad SƏMƏDZADƏ**

*"Ziya Bünyadovun gördüyü iş, xalqımıza qoyduğu irs, onun xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır".*

*Heydər Əliyev*

***...Ziya Bünyadovun həyatdan getməsi bizim üçün böyük itkidir. Çünki o, xalqımızın XX əsrdə yetirdiyi ən görkəmli alimlərdən, ən görkəmli tarixçilərdən və ən görkəmli insanlardan biri idi. O, öz varlığı ilə elə bir nadir insan idi ki, böyük, şərəfli həyat yolu ilə elə bir yüksək səviyyəli şəxsiyyət adı almışdı ki, onun haqqında nə qədər çox desək də, yenə də tam qiymətini verə bilməyəcəyik. Bir daha deyirəm, o, xalqımızın XX əsrdə dünyaya gətirdiyi, xüsusi fitri istedada malik olan, eyni zamanda öz cəsurluğu, rəşadəti, zəkası, fədakarlığı, zəhmətkeşliyi, işgüzarlığı ilə cəmiyyətdə görkəmli yer tutmuş insandır.***

***Bir baxın, gənc ikən hərbi qulluğa həvəs göstərib, hərbi məktəbə gedibdir. Bu, onun xasiyyətinin bir cinahıdır, əvvəldən axıra qədər, ömrü boyu bu xüsusiyyət onu müşayiət edibdir. İkinci Dünya müharibəsi, Vətən müharibəsi başlayan kimi orduya gedib, müharibənin əvvəlindən sonuna qədər cəbhədə olub, döyüşüb, qəhrəmanlıq göstəribdir. Ziya Bünyadovun qəhrəmanlığı, cəsurluğu və eyni zamanda Allahın bəxş etdiyi aqibət onu müharibədən qəhrəmanlıqla çıxardı. Sovet İttifaqı Qəhrəmanı kimi yüksək, şərəfli ad aldı.***

***Ziya Bünyadovun Azərbaycan elmində öz dəst-xətti, öz yolu, müstəqil fikri olmuşdur və özünəməxsus böyük xidmətləri var. O, adi bir alim, adi bir professor deyildi. O, adi bir akademik deyildi. O, alimlərin, akademiklərin, professorların içərisində öz elmi yaradıcılığına, elmi əsərlərinə görə və elmdə tutduğu mövqeyinə, prinsipiallığına görə seçilən, fərqlənən bir alim idi.***

***Ziya Bünyadovun vəhşicəsinə qətlə yetirilməsi dəhşətli bir hadisədir. Qatil qatildir. Hər bir insanı qətlə yetirən insan qatildir. Ancaq bu cür qatillik hədsiz-hüdudsuz qatillikdir. Kimə qarşı? Ziya Bünyadov kimi şəxsiyyətə qarşı! Bu qədər dahi, bu qədər ali, bu qədər böyük həyat yolu keçmiş şəxsiyyətə atılan güllə, onun qətlə yetirilməsi bütün Azərbaycana xalqına edilən təcavüzdür, Azərbaycan xalqına atılan güllədir. Nəhayət, belə bir cinayət, belə bir terror, belə bir qətl xalqımıza qarşı qətldir. Görünür ki, Azərbaycanın dövlət müstəqilliyini qoruyub saxlamaq, Azərbaycanı müstəqil bir dövlət kmi yaşatmaq, Azərbaycanda həqiqi demokratik, hüquqi dövlət qurmaq, Azərbaycan xalqını bu ağır vəziyyətdən çıxarmaq,***




***Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək, işğal olunmuş torpaqları azad etmək, yerindən-yurdundan didərgin düşmüş vətəndaşlarımızı öz el-obasına qaytarmaq yolu hələ çətin yoldur, ağır yoldur. Amma biz bu yol ilə gedirik, gedəcəyik, biz mübarizə aparırıq, aparacağıq və heç kəs iradəmizi sındıra bilməyəcəkdir, heç kəs bizi sarsıda bilməyəcəkdir!***

***Ziya Bünyadov öz yaradıcılığı ilə, öz böyük yolu ilə özünə böyük heykəl yaratmışdır, özünə böyük bir abidə qoymuşdur. Biz Ziya Bünyadovun xidmətlərini heç vaxt unutmayacağıq. Hesab edirəm ki, Ziya Bünyadovun Azərbaycan xalqı qarşısındakı xidmətləri günü-gündən daha geniş, daha parlaq açılacaq, görünəcəkdir. Ziya Bünyadovun gördüyü iş, xalqımıza qoyduğu irs, onun xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır. Mən Ziya Bünyadovun müqəddəs cənazəsi qarşısında baş əyirəm və sizi əmin edirəm ki, biz tutduğumuz yoldan dönməyəcəyik. Azərbaycanın milli azadlığı, dövlət müstəqilliyi bizim məqsədimiz, amalımızdır. Bu amal uğrunda Ziya Bünyadov fədakarcasına mübarizə aparıb şəhid oldu. Bu amal uğrunda axıradək mübarizə aparacağıq!***

**Görkəmli alim və ictimai xadim,
akademik Ziya Bünyadovla
vidalaşma mərasimində
Azərbaycan Respublikasının
Prezidenti Heydər Əliyevin nitqindən
23 fevral 1997-ci il**

# ЦБ Азербайджана и IFC обсудили перспективы сотрудничества





Центральный банк Азербайджана (ЦБА) и Международная финансовая корпорация (IFC) обсудили перспективы сотрудничества Как сообщает в понедельник Trend, об этом в своем аккаунте в социальной сети X написал председатель ЦБА Талех Кязымов.
"Сегодня мы имели удовольствие встретиться с делегацией Международной финансовой корпорации во главе с вице-президентом по Европе, Латинской Америке и Карибскому бассейну Альфонсо Гарсиа Мора. В ходе встречи состоялся продуктивный обмен мнениями о деятельности IFC в Азербайджане, состоянии сотрудничества между Центральным банком и IFC, реализуемых проектах, а также перспективах сотрудничества", - говорится в публикации.
Отметим, что Международная финансовая корпорация (IFC) инвестировала в Азербайджане за последние 30 лет свыше 800 миллионов долларов США в более, чем 60 проектов.

# Отныне можно голосовать и в Карабахе

Завершен процесс создания избирательных участков на освобожденных от оккупации территориях Азербайджана. Об этом сегодня на заседании Центральной избирательной комиссии (ЦИК) заявил председатель комиссии Мазахир Панахов.
Он отметил, что будут созданы необходимые условия для функционирования участков на освобожденных территориях.



# Hyundai продал свой завод в Петербурге




Совет директоров южнокорейского автопроизводителя Hyundai Motor одобрил продажу своего завода в Санкт-Петербурге российской компании «Арт-Финанс».
По данным Reuters, сумма сделки составила семь тысяч рублей (около 77,67 доллара), а убыток компании составил 219 миллионов долларов. Южнокорейская газета «Чосон ильбо» пишет, что сумма сделки составит около 10 тысяч рублей (чуть больше 110 долларов).
Южнокорейский производитель начал работу в Петербурге в 2010 году. В марте прошлого года на фоне российского вооруженного нападения на Украину предприятие остановило работу. В год завод выпускал 200 тысяч автомобилей. На производстве работало 2 600 человек.
Покупатель Hyundai Motor компания «Арт-Финанс» зарегистрирована в Москве в феврале. 99,99% компании принадлежит президенту группы «Авилон» Андрею Павловичу. В мае «Арт-Финанс» выкупила российские активы Volkswagen.

# Разрушительное землетрясение в Китае

В результате землетрясения магнитудой 6,5 на северо-западе Китая (провинции Ганьсу и Цинхай) погибли, по последним данным, не менее 116 человек, до 500 пострадали.
Наиболее сильные разрушения зафиксированы в провинциях Ганьсу и Цинхай. В цинхайских городах Синин и Хайдун отмечаются обрушения и повреждения домов, в некоторых населенных пунктах прервано водо- и энергоснабжение, нарушено транспортное сообщение. Условия для работы спасателей непростые: температура опускается до -14 градусов ночью, а районы бедствия расположены в высокогорье - порядка 2 тыс. м над уровнем моря.
В спасательных работах участвуют не менее 1,5 тыс. человек. На место стихии направился глава МЧС Китая Ван Сянси. Председатель КНР Си Цзиньпин распорядился приложить все усилия для поиска и спасения людей, а также ликвидации последствий землетрясения.
В провинции Ганьсу введен второй из четырех уровень экстренного реагирования на землетрясение, где первый - наивысший.

# Палестинцы определят свое будущее

Обновленная Палестинская национальная администрация (ПНА) должна в перспективе играть руководящую роль в управлении объединенным палестинским государством. Об этом заявил на регулярном брифинге для журналистов руководитель пресс-службы Госдепартамента Мэттью Миллер.
"Мы видели, что палестинская администрация действовала очень конструктивно после [вторжения боевиков радикального движения ХАМАС в Израиль] 7 октября и поддерживала стабильность на Западном берегу [реки Иордан], и мы считаем, что путь к завершению конфликта заключается в том, чтобы палестинская администрация как законный представитель народа Палестины играла руководящую роль на воссоединенных территориях Западного берега и сектора Газа", - сказал он.
Представитель внешнеполитического ведомства добавил, что Вашингтон настаивает на обновлении ПНА, и подчеркнул, что США не всегда согласны с действиями властей Палестины. Он также вновь заявил о том, что вопрос об управлении сектором Газа и Западным берегом реки Иордан по окончании конфликта должен решать палестинский народ.

# Эрдоган назвал ошибку Евросоюза

Заставлять годами ждать у дверей ЕС Турцию, которая гораздо лучше многих стран готова к вступлению в союз, является ошибкой, заявил президент Турции Реджеп Тайип Эрдоган по возвращении из Венгрии.
«Евросоюз совершает ошибку, годами заставляя Турцию ожидать вступления в союз на фоне наделения Украины и Молдовы статусами кандидатов на вступление. ЕС необходимо как следует оценить позицию Турции. ЕС многие годы под разными предлогами задерживает вступление Турции в ряды членов союза, хотя со стратегической и экономической точки зрения Анкара давно к этому готова, а за последние годы стало очевидно, насколько Турция важна и влиятельна», – заявил Эрдоган.



# Зангезурский коридор важен для всех тюркских государств



Об этом заявил министр транспорта и инфраструктуры Турции Абдулкадир Уралоглу.
«Посредством этого коридора будет обеспечена прямая связь, что создаст инфраструктуру между братским Азербайджаном и нашей страной. Зангезурский коридор является важным проектом для всех тюркских государств», - отметил Абдулкадир Уралоглу.
Отметим, что предложенный Азербайджаном проект Зангезурского коридора направлен на установление транспортного сообщения между основной частью Азербайджана и его Нахчыванской АР, проходящего через территорию Армении. Этот маршрут обладает большим потенциалом и мог бы стать одним из продолжений проекта «Один пояс - один путь», а также частью коридора Север-Юг.
Создание новой транспортной инфраструктуры на освобожденных от оккупации территориях Азербайджана, в том числе начало функционирования Зангезурского коридора, сыграет решающую роль с точки зрения открытия нового транспортного узла на маршруте Среднего коридора.
С этой точки зрения важно принятие совместных эффективных мер в направлении полной реализации транспортно-транзитного потенциала региона, увеличения и диверсификации товарооборота, упрощения и совершенствования транзитных процедур.

# Азербайджан призвал Францию не провоцировать Армению на новую войну



Политика Франции в отношении Армении может привести к возобновлению вооруженного конфликта. Не провоцировать Ереван на новую войну призвал заместитель главы Министерства иностранных дел Азербайджана Эльнур Мамедов в интервью колумбийскому телеканалу NTN24.
«Действия Франции, снабжающей Армению оборонительным и наступательным вооружением, не способствуют достижению мира в регионе Южного Кавказа», — сказал замминистра.
Мамедов заявил, что азербайджанские земли пострадали «от тяжелых последствий армянской оккупации».
«Локальные антитеррористические мероприятия, проведенные в сентябре этого года, были направлены исключительно против незаконных вооруженных формирований сепаратистов», — подчеркнул дипломат.

# Украина увеличивает производство беспилотников

Украина наращивает производство беспилотников, чтобы «компенсировать нехватку артиллерийских снарядов», заявил BBC замминистра обороны Украины Иван Гаврилюк.
По его словам, Украина также наращивает собственное производство боеприпасов «почти на всю дальность действия» для своего оружия советского производства.
Кроме того, руководство Украины рассчитывает, что оборонную промышленность страны удастся простимулировать за счет совместного производства боеприпасов с западными компаниями на украинской территории, отметил Гаврилюк. Он заявил, что именно этому вопросу были посвящены переговоры с американскими компаниями во время последнего визита президента Украины Владимира Зеленского в США.



Гаврилюк также добавил, что Украина не может сравниться с Россией в плане ресурсов и рабочей силы, поэтому руководство страны рассчитывает добиться технологического превосходства.

# “Xəzər-Avropa Birliyi Yaşıl Enerji Dəhlizi” layihəsi çərçivəsində beynəlxalq tədbir keçirilib




Bakıda “Xəzər-Avropa Birliyi Yaşıl Enerji Dəhlizi” layihəsi çərçivəsində Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstanın enerji qurumları arasında görüş keçirilib.

Görüşdə “AzərEnerji” ASC-nin prezidenti Baba Rzayev, energetika nazirinin müavini Elnur Soltanov, “Gürcüstan Dövlət Elektrik Sistemi” şirkətinin baş direktoru George Gigineishvili, Rumıniyanın “Transelectrica” şirkətinin İdarə heyətinin üzvü Bogdan Toncescu və Macarıstanın “MVM” qrupun nümayəndəsi Robert Endrejterin rəhbərlik etdiyi nümayəndə heyəti iştirak edib. Qeyd edək ki, “AzərEnerji” ASC-nin təşkilatçılığı ilə düzənlənən bu tədbir 17 dekabr 2022-ci il tarixində Buxarest şəhərində Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan ölkələrinin dövlət və hökumət başçıları tərəfindən imzalanmış “Yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş”in icrası istiqamətində keçirilib.

Sazişə əsasən, Xəzər dənizi üzərində və ətrafında yaradılacaq bərpa olunan enerji mənbələrində istehsal olunan yaşıl enerjinin Azərbaycandan Gürcüstana, oradan isə kabel xətti ilə Qara dənizin altından keçməklə Rumıniya və Macarıstana, oradan isə Avropa Birliyi ölkələrinə ötürülməsi, bununla da “Xəzər-Avropa Birliyi Yaşıl Enerji Dəhlizi”nin yaradılması tərəflər arasında əsas prioritet olaraq qəbul olunub.

Sazişin icrası istiqamətində 4 ölkənin məsul nazirlərindən ibarət yaradılmış Rəhbər Komitənin artıq 5 iclası keçirilib. Budapeşt şəhərində keçirilmiş son görüşdə növbəti addım olaraq Bakıda ötürücü qurumların arasında Birgə Müəssisənin yaradılması məqsədi ilə görüşün təşkil edilməsi razılaşdırılıb.

# Beynəlxalq daşımalarda Azərbaycanın payı 7 faiz artıb




“Avtomobil nəqliyyatı ilə beynəlxalq daşımalar üzrə Azərbaycan daşıyıcılarının bazar payı ciddi artıb”.

Bunu rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətov “Azərbaycanda Mobilliyin Transformasiyası Proqramı”nın təqdimatında bildirib.

Onun sözlərinə görə, 2022-ci ildə Azərbaycan və digər xarici ölkə daşıyıcıları tərəfindən ümumilikdə 221 min 841 ikitərəfli daşıma həyata keçirilib. Bu daşımaların 101 min 843-ü Azərbaycan daşıyıcıları tərəfindən yerinə yetirilib ki, bu da ümumi daşımaların 45,91%-ni təşkil edir.

*“Cari ildə Azərbaycan və digər xarici ölkə daşıyıcıları tərəfindən ümumilikdə 256 min 653 daşıma həyata keçirilib. Bu daşımaların 135 min 441-i Azərbaycan daşıyıcıları tərəfindən yerinə yetirilib ki, bu da ümumi daşımaların 52,77%-ni təşkil edir. 2023-cü ilin 9 ayı üzrə avtomobil nəqliyyatı xidmətlərinin ixracının ölkənin qeyri-neft ixracına nisbəti 8,9% təşkil edib”*, - deyə nazir müavini vurğulayıb.

Rəhman Hümmətov əlavə edib ki, Azərbaycanın beynəlxalq avtomobil daşımaları bazarının böyüməsinin bariz nümunəsi milli daşıyıcıların yeni istiqamətlərdə beynəlxalq yük daşımaları həyata keçirmələridir: “Azərbaycan daşıyıcıları Monqolustan və İraq kimi ölkələrə də beynəlxalq yükdaşımaları fəaliyyəti göstərirlər. Beynəlxalq daşımalarda iştirak edən yük avtomobillərinin sayında ciddi artım müşahidə edilir. Belə ki, beynəlxalq daşımalarda iştirak edən yük avtomobillərinin sayı 2021-ci ildə 3432, 2022-ci ildə 9225 və 2023-cü ildə 12593 ədəd təşkil edib”.

# Çay satışından ölkəyə gələn gəlir 2 dəfəyə yaxın azalıb

2023-cü ilin yanvar-noyabr aylarında Azərbaycan xaricə 5 milyon 906 min ABŞ dolları dəyərində 650 ton həcmində çay ixrac edib. İllik müqayisədə çay ixracından əldə olunan gəlirlərdə və həcmində azalma müşahidə olunur.



Belə ki, 2022-ci ilə nisbətən ixrac gəliri 2 dəfəyə yaxın, ixrac həcmi isə 62.2% azalıb.

Ötən ilin eyni aylarında Azərbaycanın ixrac etdiyi çayın dəyəri 10 milyon 976 min ABŞ dolları, həcmi isə 1 719 ton təşkil edib.

# Azərbaycanda ictimai nəqliyyat sahəsində dayanıqlı maliyyə modeli hazırlanıb

“Sərnişindaşıma sahəsində hazırkı vəziyyət sərnişinlərlə yanaşı, bizi də narahat edir. Hazırda paytaxt Bakıda 100-ə yaxın marşrut üzrə müasir tələblərə cavab verməyən avtobus fəaliyyət göstərir. Bu avtobusların yenilənməsinə ciddi ehtiyac var”.

Bunu rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətov “Azərbaycanda Mobilliyin Transformasiyası Proqramı”nın təqdimatında bildirib.

Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətov bildirib ki, ictimai nəqliyyatda sərnişinlərə göstərilən xidmətlərin yüksək standartlara çatdırılması və avtobus parkının yenilənməsi daim diqqət mərkəzindədir.

Rəhman Hümmətov qeyd edib ki, ictimai nəqliyyat hər nə qədər sosial ağırlıqlı bir sahə olsa da, burada iqtisadi maraqlar da qorunmalıdır.

*“Proseslər zəncirvari olaraq bir-birilə bağlıdır. Sahəvi nazirlik olaraq biz dayanıqlı ictimai nəqliyyat xidmətlərinin təmin edilməsi üçün dövlət dəstəyi mexanizminin yaradılması üzərində çalışırıq. Bu məqsədlə tərəfimizdən yeni dayanıqlı maliyyə modeli hazırlanıb və növbəti ildən tətbiqinə başlanılacaq”*, - deyə nazir müavini bildirib.

# “Balıq məhsullarının istehsalı tələbatı tam ödəmək üçün yetərli deyil”

“Hazırda Azərbaycanda istehsal olunan balıq mənşəli məhsullarla özünütəminetmə səviyyəsi aşağıdır və yerli istehsal daxili tələbatı tam ödəmək üçün yetərli deyil”.

Bunu kənd təsərrüfatı naziri Məcnun Məmmədov Bakıda keçirilən “Mərkəzi Asiya və Qafqazda balıqçılıq təsərrüfatı və akvakultura sahəsində Regional Komissiya”nın (CACFish) 8-ci Sessiyasında çıxışı zamanı bildirib.



O vurğulayıb ki, bu problem ölkədə akvakulturanın zəif inkişaf etməsindən irəli gəlir: *“Ölkədə balıqçılıq sahəsi əsasən ekstensiv üsulla inkişaf etdirilib, daha çox nohurçuluqda çəkikimi balıq növlərinin yetişdirilməsinə və təbii yemləməyə üstünlük verilib. Təsərrüfat fəaliyyətinin hazırda ekstensiv üsullarla aparılması balıq istehsalında məhsuldarlığın aşağı düşməsinə və istehsal edilən balıq məhsullarının keyfiyyət göstəricilərinə mənfi təsir edir. Balıq məhsulları istehsalının keyfiyyət göstəricilərinin və həcminin qənaətbəxş olmaması emal sənayesini kifayət qədər xammalla təmin etməyə imkan vermir, bu da balıq və balıq məhsulları idxalının artmasına səbəb olur”*.

# “Dövlət ehtiyatları haqqında” qanun layihəsi üçüncü oxunuşda qəbul edilib

Milli Məclisin plenar iclasında “Dövlət ehtiyatları haqqında” yeni qanun layihəsi müzakirəyə çıxarılıb.

Qanun layihəsi 4 fəsil və 14 maddədən ibarətdir.

Bu qanun dövlət ehtiyatlarının yaradılması və idarə edilməsi sahəsində fəaliyyətin təşkilati, hüquqi və iqtisadi əsaslarını müəyyən edəcək. Dövlət ehtiyatları haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, bu Qanundan və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarından ibarətdir. Bu qanun dövlət ehtiyatlarının yaradılması və idarə edilməsi sahəsində fəaliyyəti həyata keçirən hüquqi və fiziki şəxslərə, habelə dövlət qurumlarına şamil ediləcək.

Əlat azad iqtisadi zonasında dövlət ehtiyatlarının yaradılması və idarə edilməsi sahəsində münasibətlər “Ələt azad iqtisadi zonası haqqında” qanunun tələblərinə uyğun olaraq tənzimlənəcək.

Qanun layihəsi səsverməyə çıxarılaraq, üçüncü oxunuşda qəbul edilib.

# Azərbaycan iqtisadi fəallıq sahəsində 9 pillə irəliləyib



Azərbaycan iqtisadi fəallıq və imkanlar sahəsində dünya üzrə 9 pillə irəliləyib.

Dünya İqtisadi Forumunun Gender Fərqliliyi İndeksi (GFİ) və BMT-nin Gender Bərabərsizliyi İndeksinin (GBİ) təhlillərinə əsasən Azərbaycan dünya üzrə iqtisadi fəallıq və imkanlar sahəsində 2017-ci illə müqayisədə 2022-ci ildə 45-ci yerdən 36-cı yerə yüksəlib.

Bu barədə Milli Məclisin plenar iclasında müzakirəyə çıxarılan gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən icra hakimiyyəti orqanının 2022-ci ildə fəaliyyəti haqqında məlumatında qeyd edilib.

Bildirilib ki, həmçinin ölkəmiz bərabər təhsil sahəsində 91-ci yerdən 55-ci yerə yüksəlib.

# Ağdamda yeni zavod gələn il işə salınacaq

Ağdam sənaye parkında qeydiyyatdan keçən 25 rezidentin 10-dan çoxu tikinti-quraşdırma işlərinə başlayıb. 2024-cü il yaz aylarının sonuna bir sıra müəssisələrin açılışı gözlənilir. Onlardan biri də “Rail Trans Service” MMC tərəfindən inşa olunan Avtomatika və telemexanika istehsalı zavodudur.

Zavodun tikintisi üçün Ağdam Sənaye Parkı ərazisində 0.90 hektar torpaq sahəsi ayrılıb. Müəssisənin tikinti sahəsi 2738.9 kvadratmetrdir.



Layihə rəhbəri Seymur Qəhrəmanov bildirib ki, Avtomatika və telemexanika istehsalı zavodunun tikintisinə cari ilin oktyabr ayında başlanılıb. 2024-cü ilin may ayında inşaat işlərinin başa çatdırılaraq, zavodun işə salınması nəzərdə tutulur. Zavodda dəmir yolu siqnal sahəsi üçün avadanlıqlar istehsal olunacaq. Müəssisədə 45 nəfərin işlə təmin olunması planlaşdırılır.

Qeyd edək ki, Ağdam Sənaye Parkına investorlar tərəfindən 175 milyon manatdan çox investisiyanın yatırılması, 1600-dən artıq daimi iş yerinin yaradılması nəzərdə tutulur.

# Mərkəzi Bank: “10 ayda 700-800 min manat vəsait fırıldaqçılığın qurbanı olub”

Bu ilin yanvar-oktyabr aylarında Azərbaycanda emissiya olunmuş kartlarla 80 milyard manatlıq dövriyyə qeydə alınıb. Bunu Azərbaycan Mərkəzi Bankının (AMB) şöbə rəisi Ramil Mahmudov bildirib.



Onun sözlərinə görə, 10 aylıq dövriyyənin təxminən 700-800 min manatlıq hissəsi fırıldaqçılığın qurbanı olub. *“Bu, dövriyyənin təkibində kiçikdir, ancaq say hesabı olaraq çoxdur”*, – deyə AMB rəsmisi qeyd edib.

# Xam neft ixracından əldə olunan gəlir açıqlanıb

Bu ilin yanvar-noyabr aylarında Azərbaycan xam neft və neft məhsullarının ixracından əldə etdiyi gəlir 2022-ci ilin analoji dövründəki 18,3 milyard dollarla müqayisədə azalaraq, 15 milyard dollardan çox olub.

Beləliklə, ölkənin xam neft və neft məhsullarının ixracından əldə etdiyi gəlir illik hesablamada 17,6 faiz azalıb.

Azərbaycandan ixrac olunan xam neft və neft məhsullarının həcmi 2022-ci ilin yanvar-noyabr aylarındakı 24,318 milyon tonla müqayisədə, bu ilin analoji dövründə 0,5 faiz azalaraq, 24,199 milyon tona düşüb.

DGK-nin məlumatlarına əsasən, hesabat dövründə Azərbaycanın ixracının ümumi həcmində xam neft və neft məhsullarının payı ötən ilki 50,42 faizlə müqayisədə azalaraq, 47,92 faiz olub.

Qeyd edək ki, Azərbaycan nefti qonşu ölkələrə və dünya bazarına üç boru ilə - Bakı-Novorossiysk, Bakı-Supsa və Bakı-Tbilisi-Ceyhan (BTC) boru kəmərləri ilə nəql olunur. Hazırda Bakı-Supsa boru kəməri ilə nəql dayandırılıb.

Bundan başqa, neft dəmir yolu ilə Gürcüstanın Batumi və Kulevi terminallarına ixrac olunur.

# Mərkəzi Gömrük Hospitalında "SOS Uşaq Kəndləri"nin yeniyetmələri üçün təlim və tibbi müayinələr keçirilib



***18 dekabr 2023-cü il tarixində Mərkəzi Gömrük Hospitalında "SOS Uşaq Kəndləri"nin yeniyetmələri üçün "İlk təlim həyat qurtarır" mövzusunda təlim və tibbi müayinələr həyata keçirilib.*** Tədbirin rəsmi açılış hissəsində Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin rəis müavini, t.ü.f.d., İsmayıl Əfəndiyev, Mərkəzi Gömrük Hospitalının baş həkimi Bəxtiyar Musayev, Poliklinka şöbəsinin rəisi Tamilla Əliyeva, həkimlər, "SOS Uşaq Kəndləri-Azərbaycan" Assosiasiyasının həkimi Anjela Əliyeva və yeniyetmələr iştirak ediblər.

Rəis müavini İsmayıl Əfəndiyev rəsmi açılış hissəsində çıxış edərək bildirib ki, Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsi və "SOS Uşaq Kəndləri-Azərbaycan" Assosiasiyası arasında imzalanmış memoranduma əsasən Bakı və Gəncə şəhərlərində yerləşən "SOS Uşaq Kəndləri-Azərbaycan" Assosiasiyasının sakinləri üçün davamlı olaraq sosial layihələr keçirilir və aksiyalar gələcəkdə də davam edəcək. İ.Əfəndiyev sosial tibbi aksiyada iştirak edən Mərkəzi Gömrük Hospitalının tibb personalına təşəkkürünü bildirib.

"SOS Uşaq Kəndləri-Azərbaycan" Assosiasiyasının həkimi Anjela Əliyeva yeniyetmələrə göstərilən diqqət və qayğıya görə Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi, Əməkdar həkim Ceyhun Məmmədova, Mərkəzi Gömrük Hospitalının baş həkimi Bəxtiyar Musayevə və həkimlərə dərin minnətdarlığını bildirib.

Daha sonra Mərkəzi Gömrük Hospitalının pediatrları – Dr. Nigar Mirzəyeva və Dr.Fərəh Vahabova, psixiatr Gülay Məmmədzadə, uşaq nevropatoloqu Mehriban Məmmədova, mama-ginekoloq Leyla Qaçaylı, USM həkimi Dr.Günay Əhmədova, funksionalist Nigar Rəhmətova və dermatovenероloq Sevinc Kərimova öz sahələrinə müvafiq olaraq "SOS Uşaq Kəndləri"nin yeniyetmələrini müayinə ediblər.

***Müayinələrdən sonra "SOS Uşaq Kəndləri-Azərbaycan" Assosiasiyasının yeniyetmələri Təcili Tibbi Yardım şöbəsinin təcili yardım həkimi Nərgiz Kərimova tərəfindən aparılan "İlk təlim həyat qurtarır" mövzusunda təlimdə iştirak ediblər.*** Təlimin sonunda iştirakçılara sertifikatlar və xatirə hədiyyələri təqdim edilib. Tədbir xatirə şəklinin çəkilməsi ilə başa çatıb.

**Dilarə Zamanova, Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi**

# "Goldman Sachs" S&P 500 indeksi ilə bağlı proqnozunu yüksəldib

İlin sonunda bazar artımı zəifləmə əlamətləri göstərmədiyi üçün "Goldman Sachs"ın analitiki David Kostin və komandası ABŞ-ın S&P 500 indeksi ilə bağlı proqnozunu yüksəldib. Bu barədə "Bloomberg"in məlumatında qeyd olunur.

David Kostin deyir ki, S&P 500 indeksi 2024-cü ilin sonuna kimi 5100 bəndə çata bilər. Onun fikrincə, ABŞ Federal Ehtiyat Sisteminin (FED) pul siyasətini yumşaltmaq istəyi aşağı istehlak qiymətləri ilə




birlikdə real investisiya gəlirlərinin azalmasına səbəb olacaq, lakin eyni zamanda səhmlərin qiymətləndirilməsi güclənəcək.

"Goldman Sachs"ın hazırkı proqnozu "Bank of America Corp" və "Oppenheimer Asset Management"in gözləntilərinə uyğundur. Onlar həmçinin indeksin 2024-cü ildə zirvəyə çatacağını gözləyirlər.

"Business Insider" qeyd edib ki, Uoll-Strit üzrə ən nikbin proqnozu "Yardeni Research" konsaltinq agentliyinin prezidenti Ed Yardeni verib. O, S&P 500-ün 2024-cü ilin sonunda 5400, 2025-ci ilin sonunda isə 5800 bəndə çatacağını gözləyir. Xatırladaq ki, S&P 500 dekabrın 15-də 4719.19 səviyyəsində olub.

# Bloomberg: ABŞ şist neft hasilatını artırıb

Agentliyin məlumatına görə, bu, OPEC+ ölkələrinin hasilatının azalması fonunda baş verir. ABŞ ötənilki proqnozlarla müqayisədə şist neft hasilatını artırıb. Bu barədə Bloomberg agentliyi məlumat yayıb.

Agentlik qeyd edib ki, analitiklər cari rübdə ABŞ-da hasilatın orta hesabla gündəlik 12,5 milyon barel təşkil etməli olduğunu proqnozlaşdırıblar, lakin bu, gündəlik 13,3 milyon barel təşkil edib.

Bloomberg hasilatın artımını "təəccüblü" adlandırır, çünki bu il qazma qurğularının sayı 20% azalıb. Agentlik istehsalın bu qədər artmasına səbəb kimi innovasiyaların tətbiqini



göstərir.

Neft İxrac Edən Ölkələr Təşkilatı (OPEC) daha əvvəl bildirmişdi ki, OPEC-ə daxil olmayan ölkələrdə qlobal neft hasilatı 2023-cü ildə gündəlik 1,8 milyon barel arta bilər və bu prosesə ABŞ-ın da töhfəsi əhəmiyyətli olacaq.

OPEC-in hesablamalarına görə, 2023-cü ildə ABŞ-da maye karbohidrogen hasilatının artımı gündəlik 1,3 milyon barel təşkil edəcək. ABŞ-dan əlavə, 2023-cü ildə Braziliya, Qayana, Qazaxıstan, Çin, Norveç və Meksikada istehsalın artacağı gözlənilir.

# Ən yüksək inflyasiya Çexiyada qeydə alınıb




Noyabrda Avropa İttifaqı ölkələrində inflyasiyanın səviyyəsi yarım faiz azalaraq 3,1 faiz təşkil edib və bu, təxminən iki ilin ən aşağı göstəricisidir.

2022-ci ilin noyabrında Avrozonada inflyasiya səviyyəsi 10,1 faiz, bütün Avropa İttifaqında 11,1 faiz təşkil edib. Çex Respublikasında isə bütün Aİ-də ən yüksək inflyasiya qeydə alınıb, burada qiymətlər illik 8 faiz artıb. Bunun əksinə olaraq, artıq deflyasiya yaşanan Belçikada qiymətlər illik 0,8 faiz ucuzlaşıb.

Uzun müddət Aİ-də ən pis göstəricilərə malik olan Macarıstanda indi inflyasiya 7,7 faizdən aşağıdır. Polşada inflyasiya oktyabrdakı 6,3 faiz səviyyəsində qalıb, Slovakiyada isə 6,9 faizə düşüb. Bir il əvvəl inflyasiya Çexiyada 17,2 faiz, Macarıstanda 23,1 faiz, Slovakiyada 15,1 faiz, Polşada isə 16,1 faiz təşkil etmişdi.

# Avropa bankları səhmdarlara €70 mlrd. ödəyəcək

Avropa Mərkəzi Bankının (ECB) bank nəzarəti üzrə rəhbəri Andrea Enria "Bloomberg TV"yə müsahibəsində bildirib ki, 2023-cü ilin sonuna qədər Avropa bankları səhmdarlara ümumilikdə təxminən 70 milyard avro ödəyəcək.

Cənab Enrianın sözlərinə görə, Aİ bankları bu il gəlirli olub, ona görə də gəlirləri əvvəlki illərin səviyyəsində bölüşdürməyi planlaşdırırlar. O qeyd edib ki, elan etdiyi məbləğ "ilkin"dir.

Agentliyin məlumatına görə,



Aİ-nin 10 ən böyük bankının kapitalı tənzimləmə məqsədləri üçün tələb olunan vəsaiti 140 milyard avrodan çox üstələyir. Cənab Enria bildirib ki, ECB səhmdarların ödənişlərinin bankların kapital trayektoriyasına uyğun olub-olmadığını qiymətləndirəcək.

Tənzimləyici orqanın sözçüsü xəbərdarlıq edib ki, banklar sayıq qalmalıdırlar. O bildirib ki, ECB hələ də kredit riskləri, xüsusən də daşınmaz əmlak sektorunda, o cümlədən kommersiya risklərindən narahatdır.

# Aİ ABŞ mallarına rüsumları dayandıracaq



Avropa İttifaqı (Aİ) 2025-ci ilin mart ayının sonuna qədər bir sıra ABŞ mallarına ticarət rüsumlarının tətbiqini dayandıracaq. Bu barədə Aİ-nin rəsmi saytında dərc olunmuş press-relizdə deyilir.

Qeyd olunub ki, Aİ motosiklet, geyim və spirtli içkilərə tarifləri 15 ay müddətinə dayandıracaq. ABŞ isə öz növbəsində 2018-ci ildə o vaxtkı prezident Donald Tramp tərəfindən tətbiq edilən və Aİ-dən polad üçün 25% və alüminium üçün isə 10% həcmində tutulan rüsumlardan imtina edəcək.

Xatırladaq ki, Bloomberg oktyabrın 6-da Aİ və ABŞ-ın transatlantik ticarətdə artan tariflərin qarşısını almaq üçün polad və alüminium ticarəti üzrə müvəqqəti saziş imzalamaq üzərində işlədiyini bildirmişdi. Söhbət artıq polad istehsal gücü, eləcə polad və alüminium sektorlarında istixana qazları emissiyaları ilə bağlı problemin həlli üçün ilkin razılaşmalardan gedir.

Agentliyin məlumatına görə, sövdələşmədə polad üçün yeni tariflər də var ki, onların tətbiqi Qərb ölkələrinin dempinqdə ittiham etdiyi Çin kimi ölkələrin qeyri-bazar təcrübələrinə qarşı yönəlməlidir.




**Azəri Light və Brent markalı neftin bir barelinin 14 – 20 dekabr tarixlərində satış qiyməti, ABŞ dolları ilə (ICE birjası)**

**İqtisadçı ekspert: Maqsud Quliyev**

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
**Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Bəyalı Ataşov, Zahid Məmmədov, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev**

**www.iqtisadiyyat.com**

Redaksiyanın ünvanı: Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq: +99412 566 63 08

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500**